

Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır



# Zəngəzur dəhlizi açılır

## Böyük iqtisadi potensiala malik region birləşəcək

Bax səh. 4


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 25 may 2022-ci il, çərşənbə / № 091 (6193). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik




# Türk dünyası maraq göstərir





Bax səh. 2

# Heydər Əliyev Fondunun quruculuq missiyası

## Ümumbəşəri dəyərlərə, milli, dini və mədəni irsə sonsuz hörmətin ifadəsidir

Bax səh. 3

# Siyasi dialoq mədəniyyətinin yeni mərhələsi

Ölkəmizdə həyata keçirilən iqtidar-müxalifət dialoqu çərçivəsində Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev mayın 24-də Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbərlə görüşüb.

Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsindən bildiriblər ki, görüşdə şöbə müdiri Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkəmizdə siyasi dialoq mədəniyyətinin yeni mərhələsinin uğurla davam etdirilməsi, aparılan çoxşaxəli islahatların müvəffəqiyyətlə həyata keçirilməsi, bir çox məsələlərlə bağlı qanunvericilik və institusional tədbirlərin görülməsi və bütün bu islahatlar fonunda ölkəmizdə fikir plüralizminin...

Bax səh. 2

# Yeni Əfv Sərəncamı...

## Kimlərə şamil olunacaq?

Azərbaycanda insan hüquq və azadlıqlarının yüksək səviyyədə təmin olunması, hər bir fərdə sosial münasibətlər sistemində iştirak etmək üçün əlverişli şəraitin yaradılması dövlət quruculuğu prosesinin humanist səciyyəli prioritet istiqamətlərindən birini təşkil edir. Bu isə nəticə etibarilə çoxşaxəli humanizm siyasətinin həyata keçirilməsini şərtləndirən başlıca amillərdəndir. Bunlardan biri ni də azadlıqdan məhrumetmə və azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş şəxslərin əfv edilməsi ilə bağlı dövlət başçısı tərəfindən imzalanan əfv haqqında sərəncamlar, həmçinin amnistiya aktlarının qəbul olunması təşkil edir.

28 May Müstəqillik Günü...

Bax səh. 4

# Bütün yollar Azərbaycana aparır!

## Asiya ilə Avropanı birləşdirən tranzit qovşağı

Bax səh. 5

# Şamaxı "Türk Dünyasının Turizm Paytaxtı" seçilib

Bax səh. 7

# Müharibə bitsə də...

## İnformasiya cəbhəsində savaş davam edir

44 günlük Vətən müharibəsi Azərbaycanın son 200 illik tarixinin ən şanlı səhifəsidir. Müharibədə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında döyüşən Silahlı Qüvvələrimiz 30 illik işğal faktına son qoydu. 300-ən çox yaşayış məntəqəsi bilavasitə döyüş meydanında geri qaytarıldı. Ağdam, Kəlbəcər, Laçın rayonları isə 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata əsasən qan tökülmədən respublikamıza qaytarıldı. Beləliklə, respublikamız hərbi-siyasi yolla...

Bax səh. 5

# Türkiyə - regional təhlükəsizliyin əsas təminatçısı

## Ərdoğan növbəti dəfə qətiyyətli mövqe sərgilədi

Son illərdə mühüm siyasi-iqtisadi, hərbi inkişaf yolu qət etmiş, artıq Yaxın Orta Şərqin və Avropanın aparıcı güc mərkəzinə çevrilən Türkiyə regional təhlükəsizliyin əsas təminatçısı kimi çıxış etməkdədir. Rusiya-Ukrayna müharibəsi ilə...

Bax səh. 5

# Avropanın ümid yeri

Bax səh. 3

# Ukrayna əraziləri Polşanın hədəfində...

## Rusiya sərhədlərinə yaxınlaşmaq üçün yeni plan

Analitiklər dağıdıcı müharibə poliqonuna çevrilən Ukraynanı dadlı piroqa bənzədirlər. Bu ölkənin hazırkı çətinlikləri fonunda "yetimə can-can" deyən ayrı-ayrı ölkələr və beynəlxalq təşkilatlar bu piroqdan özlərinə pay götürmək və siyasi-iqtisadi dividendlər qazanmaq istəyirlər. Proseslərin gedişindən o nəticə hasil olur ki, Ukraynanın suverenliyi və ərazi bütövlüyü də təhdidlər...

Bax səh. 6

# "Əfqandaxili barışıq" planı...

## "Taliban" mühacirləri geri qayıtmağa çağırır

"Taliban" mühacirətdə olan Əfqanıstan siyasətçiləri və hərbçilərinin geri qayıtmaları üçün 15 maddədən ibarət qanun layihəsi hazırlayır. Əfqanıstanın Keçmiş Məmurlar və Siyasətçiləri ilə bağlı Qayıdış və Əlaqələr Komissiyası əfqan siyasətçiləri və hərbçilərinin geri qayıtdıqları təqdirdə müvəqqəti yaşayış yerlərinin nəzərdən keçirilməsi və qanuni tələblərinin yerinə yetirilməsi ilə...

Bax səh. 6



# Türkiyə şahinləri yenidən Bakı səmasında...

Bax səh. 3

# Türk dünyası maraq göstərir



**Prezident İlham Əliyev mayın 24-də Türk Dövlətləri Təşkilatının (TDT) Baş katibi Bağdad Amreyevi qəbul edib.**

Görüşdə Türk Dövlətləri Təşkilatı çərçivəsində müxtəlif istiqamətlərdə uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd olunub, Azərbaycanın bu Təşkilatın fəaliyyətində rolu yüksək qiymətləndirilib.

Torpaqlarımızın Ermənistan tərəfindən işğalı zamanı və Vətən müharibəsi dövründə Təşkilatın Azərbaycanın ədalətli mövqeyinə verdiyi dəstəyin əhəmiyyəti bir daha vurğulanıb.

Bağdad Amreyev işğaldan azad edilmiş ərazilərə, o cümlədən Şuşaya səfərlərini məmnunluqla xatırlayıb. Qonaq yaxın günlərdə Bakıda Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin informasiya və yüksək texnologiyalar nazirlərinin də toplantısının keçiriləcəyini və həmin toplantıda iştirak edən nazirliklərin təmsilçilərinin "TEKNOFEST Azərbaycan" Aerokosmik və Texnologiya Festivalına da qatılacaqlarını diqqətə çatdırıb. O, həmçinin iyunda Şuşada Türk Dövlətləri Təşkilatı çərçivəsində genişmiqyaslı biznes forumun keçirilməsi niyyətinin olduğunu diqqətə çatdırıb, Türk dünyasından olan özəl şirkətlərin və iş adamlarının Azərbaycanın işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur bölgələrində həyata keçirilən quruculuq layihələrinə böyük maraq göstərdiklərini bildirib. Bağdad Amreyev Şuşanın 2023-cü ildə Türk Dünyasının Mədəniyyət Paytaxtı elan olunduğunu qeyd edib, bu baxımdan Azərbaycan ilə birlikdə Şuşada çoxsaylı mədəniyyət tədbirlərinin keçiriləcəyini deyib.

Söhbət zamanı Türk Dövlətləri Təşkilatı tərəfindən Şamaxı şəhərinin 2023-cü il üçün Türk Dünyasının Turizm Paytaxtı seçilməsinin əhəmiyyəti qeyd edilib və Bağdad Amreyevin Şamaxıya səfərinin türk dövlətləri arasında turizm sahəsində də əməkdaşlığın genişləndirilməsi işinə töhfə verəcəyinə əminlik ifadə edilib.

Söhbət zamanı əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.



**Prezident İlham Əliyev mayın 24-də Özbəkistanın Baş nazirinin müavini, turizm və mədəni irs naziri Aziz Abduhakimovu qəbul edib.**

Aziz Abduhakimov Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin salamlarını dövlətimizin başçısına çatdırıb.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirib, onun da salamlarını Özbəkistan dövlətinin başçısına çatdırmağı xahiş edib.

Görüşdə Azərbaycan ilə Özbəkistan arasında dostluq münasibətlərinin müxtəlif sahələrdə - siyasi, iqtisadi, nəqliyyat və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulanıb, bu baxımdan qarşılıqlı səfərlərin önəmi qeyd edilib.

Söhbət zamanı Şamaxının Türk Dövlətləri Təşkilatı tərəfindən Türk Dünyasının Turizm Paytaxtı seçilməsi və orada Təşkilata üzv ölkələrin turizm nazirlərinin VII iclasının keçirilməsinin önəminə toxunulub. Bu tədbirin Təşkilata üzv dövlətlər arasında turizm sahəsində əməkdaşlığın genişləndirilməsi işinə töhfə verəcəyinə əminlik ifadə olunub.

Dövlətimizin başçısı Füzuli rayonunun erməni işğalından azad edilmiş ərazisində Özbəkistan Prezidentinin məktəb binasının tikintisi ilə bağlı təşəbbüsünü yüksək qiymətləndirdiyini bir daha qeyd edib.

Prezident İlham Əliyev bildirib ki, ölkələrimizdə tarixi baxımdan xeyli sayda görməli yerlərin və dünya əhəmiyyətli tarixi abidələrin mövcudluğu nəzərə alınaraq turizm sahəsində əməkdaşlığın genişləndirilməsi üçün yaxşı potensial var.

Qonaq turizmlə bağlı ölkələrimizin müvafiq qurumları arasında səmərəli əməkdaşlığın həyata keçirildiyini vurğuladı və Şamaxıdakı tədbirdə iştirakından məmnunluğu ifadə etdi.

## Prezident bu gün




**Prezident İlham Əliyev**
**(2004-2021-ci illər)**
25 may

9 qəbul keçirib;
1 görüşü olub.
31 Sərəncam;
12 Fərman imzalayıb.
12 açılış;
1 təməlqoyma mərasimində iştirak edib.
4 regiona səfər edib.
1 xarici KİV-ə müsahibə verib.
9 görülən işlərlə tanış olub.

## Rəsmi sənədlər

Azərbaycan Prezidentinə 28 may Respublika Günü münasibəti ilə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisinin Baş katibi Asəf Hacıyev, Qazaxıstan Respublikasının birinci Prezidenti - Elbası Nursultan Nazarbayev, Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisi, Portuqaliya Respublikasının Prezidenti Marselo Rebelo de Souza, Çex Respublikasının Prezidenti Miloş Zeman, Slovakiya Respublikasının Prezidenti Zuzana Çaputova, İsveçrə Konfederasiyasının Prezidenti İqnazio Kassis, Qvineya-Bisau Respublikasının Prezidenti Umaru Sisoku Embalo, Xorvatiya Respublikasının Prezidenti Zoran Milanoviç, Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko, Mərakeşin Kralı VI Məhəmməd, Belçikalıların Kralı Filip, İsveçrə Konfederasiyasının Prezidenti İqnazio Kassis, Türk Dövlətləri Təşkilatının Baş katibi Bağdad Amreyev təbrik məktubları ünvanlayıblar.

***

Azərbaycan Prezidenti Azərbaycan Respublikası İctimai Televiziya və Radio Yayımları Şirkətinə maliyyə dəstəyi göstərilməsi haqqında Sərəncamı;

***

"Peşə təhsili haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 26 aprel tarixli 521-VIQD nömrəli Qanununun tətbiqi və "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1071-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyun tarixli 140 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərmanı;

***

C.Q.Qurbanovun "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri vəzifəsindən azad edilməsi haqqında Sərəncamı;

***

C.Q.Qurbanovun Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini təyin edilməsi haqqında Sərəncamı;

***

S.Q.Məmmədovun Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini təyin edilməsi haqqında Sərəncamı;

***

F.T.Əhmədovun Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini təyin edilməsi haqqında Sərəncamı;

***

"Azərbaycan Respublikasında nəqliyyat, rabitə və yüksək texnologiyalar sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərmanı imzalayıb.



# Siyasi dialoq mədəniyyətinin yeni mərhələsi

Ölkəmizdə həyata keçirilən iqtidar-müxalifət dialoqu çərçivəsində Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev mayın 24-də Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbərlə görüşüb.

Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsindən bildiriblər ki, görüşdə şöbə müdiri Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkəmizdə siyasi dialoq mədəniyyətinin yeni mərhələsinin uğurla davam etdirilməsi, aparılan çoxşaxəli islahatların müvəffəqiyyətlə həyata keçirilməsi, bir çox məsələlərlə bağlı qanunvericilik və institusional tədbirlərin görülməsi və bütün bu islahatlar fonunda ölkəmizdə fikir plüralizminin inkişafı üçün geniş imkanların yaradılması, siyasi baxışlarından asılı olmadan bütün əhali qrupları arasında ictimai iştirakçılığın genişmiqyaslı tətbiqi barədə və çoxpartiyalı sistemin inkişafına dövlət dəstəyindən söz açıb, Azad Demokratlar Partiyasının dövlət qeydiyyatından keçməsi və bugünkü aktiv legitim fəaliyyəti haqqında fikirlərini bildirib.

Azərbaycanda aparılan iqtidar-müxalifət dialoquna töhfə vermək məqsədilə müxtəlif siyasi partiyaların fəaliyyəti üçün münbit şərait yaradılmasından bəhs edən Ədalət Vəliyev ölkədə sabit siyasi mühitin dəstəklənməsi və siyasi partiyaların normal fəaliyyətinin təmin olunması üçün mütəmadi qaydada iş aparıldığını qeyd edib, bu istiqamətdə işlərin davamlı olacağına diqqət çəkib.

Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər siyasi dialoq mədəniyyətinin inkişafı üçün yeni yaradılmış partiyalarla əməkdaşlığın digər partiyalarla eyni səviyyədə qurulması və ümumi işə töhfə vermək naminə rəhbərlik etdiyi partiya ilə belə bir görüşün keçirilməsinə görə öz təşəkkürünü bildirib, iqtidarla aparılan siyasi dialoqun dövlətçiliyimizin inkişafına, partiyalarla hakimiyyət arasında və partiyalararası olan siyasi əməkdaşlığın dərinləşməsinə xidmət etdiyini vurğulayıb.

O, həmçinin son illərdə Azərbaycanın siyasi həyatının daha konstruktiv dinamikaya kökləndiyini, siyasi güclər arasında yersiz qarşıdurma, siyasi ittiham, inciklik, süni hüquqi maneələrlə bu və ya digər siyasi xadimlərin və qüvvələrin marginallaşdırılması, partiyalar, siyasi qüvvələrarası ifrat qütbləşmənin aradan qaldırılması istiqamətində böyük işlər görüldüyünü qeyd edib.

Sonda tərəflər dövlət siyasətinin müxtəlif istiqamətləri ilə bağlı siyasi partiyaların təklif və təşəbbüsləri, işğaldan azad olunan torpaqlarımızda aparılan quruculuq işlərinin dövlətimizin iqtisadi gücünün göstəricisi olması, xarici siyasətdə qazanılan önəmli qələbələr, Vətən müharibəsi Zəfərinin Azərbaycana bəxş etdiyi dividendlər, Azərbaycanla Ermənistan arasında və ümumilikdə regionda baş verən geosiyasi reallıqlar, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan arasında ötən ilin sonu və bu il keçirilmiş üç görüşün nəticələri, Azərbaycanın dünyada artan nüfuzu və digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparıblar.

# Zəngəzur dəhlizi açılır

## Böyük iqtisadi potensiala malik region birləşəcək

*Nurlan QƏLƏNDƏRLİ*

Mayın 23-də Prezident İlham Əliyev ilə Prezident Rəcəb Tayyib Ərdoğan arasında telefon danışığı zamanı toxunulan məsələlərdən biri regionda nəqliyyat dəhlizlərinin açılması, kommunikasiyaların bərpası oldu. Prezident İlham Əliyev Zəngəzur dəhlizinin açılması, o cümlədən həm dəmir yolu, həm də avtomobil yolunun çəkilməsi məsələləri ilə bağlı tərəflərin razılığa gəldiyini bildirdi.

**Yeni mərhələ - yeni fürsət**

44 günlük müharibədə qələbə qazanaraq öz ərazi bütövlüyünün və tarixi ədalətin bərpasına nail olan Azərbaycan regionda yeni geostrateji reallıqlar yaradıb. Bu gerçəkliklər bölgədə inteqrasiya və çoxtərəfli əməkdaşlıq mühitinin formalaşmasına xidmət edir. Xüsusilə də, Azərbaycanın geosiyasi iradəsi nəticəsində kommunikasiya xətlərinin bərpası, yeni nəqliyyat dəhlizinin yaradılması mühüm siyasi və iqtisadi dividendlər, perspektivlər vəd edir.

Şübhəsiz ki, postkonflikt mərhələsində Zəngəzur dəhlizinin yaradılması Avrasiyada yeni işbirliyi platformasının əsasının qoyulmasıdır. Asiyadan Avropaya doğru uzanan geniş coğrafiyada bir çox dövlət bu geostrateji proyektin reallaşmasında maraqlıdır. Sadəcə olaraq, bu imkanlardan yararlanmaq üçün konstruktiv mövqe, praqmatik davranış ortaya qoymaq lazımdır.

**Geosiyasi iradənin və prinsipial mövqeyin nəticəsi**

Azərbaycan Prezidenti dəfələrlə ölkəmizin Zəngəzur dəhlizinin açılmasına nail olacağını qətiyyətlə vurğulayıb. Ermənistan isə kommunikasiyaların bərpası, yeni dəhlizin yaradılması ilə əlaqədar qeyri-müəyyən şərait yaratmağa, vaxtı uzatmağa, müxtəlif bəhanələr irəli sürməklə süni gündəm formalaşdırmağa çalışırdı. Buna baxmayaraq, hərbi Zəfəri diplomatik müstəvidə möhkəmləndirərək tarixi prosesə çevirən Bakı strateji təşəbbüsləri və fəaliyyəti ilə sülh gündəliyini, regional geostrateji gündəmi müəyyənləşdirdi - İrəvanı konstruktiv mövqeyə məcbur etdi. Budur, Prezident İlham Əliyevin, Şarl Mişelin və Nikol Paşinyanın Brüsseldə üçüncü üçtərəfli görüşü zamanı Zəngəzur dəhlizi ilə əlaqədar ortaq mövqe bildirildi - razılıq əldə olundu. Şarl Mişel görüşün nəticələri ilə əlaqədar mətbuata açıqlamasında bu məsələyə toxunaraq "Kommunikasiya ilə əlaqədar liderlər nəqliyyat əlaqələrinin açılması istiqamətində işlərin davam etdirilməsi zərurəti üzərində razılığa gəldilər. Onlar Azərbaycanın qərb hissəsi ilə Naxçıvan və Azərbaycan ərazisindən Ermənistanın müxtəlif hissələri arasında tranzitləri, habelə hər iki ölkənin kommunikasiya infrastrukturu vasitəsilə beynəlxalq nəqliyyat daşımalarını tənzimləyəcək prinsiplər üzərində razılığa gəldilər. Onlar xüsusilə beynəlxalq daşımalar kontekstində sərhəd idarəetmə prinsipləri, təhlükəsizlik, eləcə də gömrük rüsumları və qaydaları barədə razılığa gəliblər və yaxın günlərdə Baş nazirlərin müavinləri bu işi davam etdirəcəklər" ,- deyə bildirdi.

**Həm Azərbaycan, həm region dövlətləri, həm də...**

Azərbaycan bu istiqamətdə strateji fəaliyyətini davam etdirir, müvafiq işlər görülür. Ölkəmiz bu günə qədər Şərq-Qərb, Şimal-Cənub, Şimal-Qərb nəqliyyat dəhlizləri kimi regional kommunikasiya layihələrinin icrasında çox fəal rol oynayıb, ölkəmizin təşəbbüsü ilə əhəmiyyətli addımlar atılıb. İndiki mərhələdə Azərbaycan Avrasiyada geniş bir coğrafiyanı əhatə edən, Asiya ilə Avropanı birləşdirən Şərq-Qərb dəhlizinin tərkib hissəsi olacaq "Zəngəzur nəqliyyat dəhlizi" üzərində çalışır. Bu layihənin gerçəkləşdirilməsi ilə regionda əməkdaşlığa xidmət edən inteqrasiya prosesi güclənəcək. Bu dəhliz, eyni zamanda, ölkəmizin Avrasiyanın nəqliyyat və logistika mərkəzi kimi geostrateji mövqeyini möhkəmləndirəcək, tranzit imkanlarını genişləndirəcək, Azərbaycan mühüm siyasi-iqtisadi dividendlər qazanacaq. Bütövlükdə, respublikamızın fəal iştirakı və liderliyi fonunda cərəyan edən proseslər Avrasiyada yeni geosiyasi konfiqurasiyanın formalaşmasına ciddi təsir göstərəcək. İndi ölkəmizin təşəbbüsü ilə yeni yaranan təhlükəsizlik mühiti regional və qlobal güc mərkəzlərinin ortaq maraqlar əsasında səmərəli əməkdaşlığı üçün geniş imkanlar açır. Başqa sözlə, perspektivə dair aydın strateji baxışları olan Azərbaycanın yaratdığı bu reallıqlar təkcə respublikamız üçün deyil, bütövlükdə region dövlətləri və dünya siyasətinin aparıcı subyektləri üçün də mühüm dividendlər vəd edir.



**1.1 trilyon dollardan çox...**

Milli Məclisin deputatı, iqtisadçı-ekspert Vüqar Bayramov qeyd edib ki, Zəngəzur dəhlizi yalnız Şərqi Zəngəzur və Qafqaz üçün deyil, daha geniş anlamda region üçün strateji əhəmiyyətə malik olacaq: "Söhbət 1.1 trilyon dollardan çox nominal ümumi daxili məhsulu olan türk dövlətlərini strateji və iqtisadi baxımdan birləşdirəcək dəhlizdən gedir. Belə ki, Türkiyə 761.4 milyard dollar, Qazaxıstan 181.7 milyard dollar, Özbəkistan 57.9 miyard dollar, Azərbaycan 48 milyard dollar, Türkmənistan 48 milyard dollar və Qırğızıstan 8.5 milyard dollar nominal ÜDM-ə malikdirlər. Bu isə ondan xəbər verir ki, Zəngəzur dəhlizi kifayət qədər böyük iqtisadi potensiala və təbii resurslara malik olan regionu birləşdirəcək".

**Türk dünyası uzun müddət sonra Zəngəzur dəhlizi vasitəsilə birləşəcək**

Millət vəkilinin sözlərinə görə, Zəngəzur dəhlizinin istifadəyə verilməsi, eyni zamanda, Azərbaycanı regionun nəqliyyat qovşaqlarının habına çevirəcək: "Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin formalaşmasında yaxından iştirak edir, birbaşa həmin nəqliyyat dəhlizlərinin regional hissəsinin inkişafına həm də maliyyə dəstəyi nümayiş etdirir. Bu, Naxçıvanın Azərbaycanın əsas ərazisi vasitəsilə həmin nəqliyyat dəhlizlərinə çıxışını təmin edəcək. Xüsusən də Şərq-Qərb nəqliyyat dəhlizinə naxçıvanlı iş adamlarının çıxışının təmini baxımından əhəmiyyətli olacaq. Dəhliz Naxçıvan Muxtar Respublikası və Türkiyə ilə əlaqələri də gücləndirəcək, ölkəmizin geoiqtisadi əhəmiyyətini daha da artıracaq. Ən əsası, Türk dünyası uzun illərdən sonra Zəngəzur dəhlizi vasitəsilə birləşəcək".

# Heydər Əliyev Fondunun quruculuq missiyası

## Ümumbəşəri dəyərlərə, milli, dini və mədəni irsə sonsuz hörmətin ifadəsidir

30 ilə yaxın müddət ərzində Ermənistanın işğalçı siyasətindən əziyyət çəkməsinə, müxtəlif vandalizm aktları ilə üzləşməsinə baxmayaraq, Azərbaycan xalqı iradəli, əzmkar və mübariz olmaqla yanaşı, humanist, tolerant və qurucu xalq olduğunu da sübuta yetirib. Bu gün ölkəmizdə müxtəlif dinlərin və xalqların nümayəndələri sülh, əmin-amanlıq və mehribanlıq şəraitində yaşayırlar. Dünyada multikulturalizm mərkəzlərindən olan və tolerantlıq nümunəsi kimi çıxış edən Azərbaycan bu zəngin tarixi irsi əsasında sivilizasiyalar arasında dialoqun inkişafını təşviq edir, bu yolun qarşılıqlı əməkdaşlığa, inteqrasiyaya, sülh və təhlükəsizliyinə xidmət etdiyini göstərir. Ölkəmizdə bütün xalqlara və dinlərə hörmətlə yanaşılması multikulturalizmin, dinlərə və mədəniyyətlərə tolerant münasibətin cəmiyyətimizin həyat tərzi olduğunu təsdiqləyir.

Azərbaycanda çoxlu sayda dini və etnik icma fəaliyyət göstərir, hər kəsin dini ayinləri sərbəst şəkildə yerinə yetirməsi üçün zəruri şərait təmin olunub. Müxtəlif dini dünyagörüşünə malik olan insanlar öz vicdan və etiqad azadlıqlarından sərbəst istifadə edirlər. Ölkədə İslam, xristian və digər səmavi dinlərin mədəniyyət nümunələri olan tarixi-memarlıq abidələri, məscidlər, ziyarətgahlar, müqəddəs dini sitayiş, inanc yerləri təmir və bərpa olunur, dövlət tərəfindən dini qurumlara maliyyə yardımı edilir. Xatırladaq ki, ötən ay Prezident İlham Əliyev Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərilməsi haqqında Sərəncam imzalamışdı. Sərəncama əsasən, 2022-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Qafqaz Müsəlmanları İdarəsinə 1 milyon manat, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası dini qurumuna 350 min manat, Bakı şəhəri Dağ Yəhudiləri dini icmasına 350 min manat, Avropa yəhudilərinin Bakı dini icmasına 350 min manat, Azərbaycan Respublikasında Katolik Kilsəsinin Apostol Prefekturası dini qurumuna 350 min manat və Azərbaycan Respublikasının Alban-Udi xristian dini icmasına 350 min manat, habelə digər qeyri-islam dini icmalarına maddi dəstək məqsədilə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində olan Mənəvi Dəyərlərin Təbliği Fonduna 350 min manat ayrılıb.

Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da genişmiqyaslı quruculuq fəaliyyəti ilə xalqımızın ümumbəşəri dəyərlərə, milli, dini və mədəni irsə sonsuz hörmətini ifadə edir. Fondun dəstəyi ilə Azərbaycanın müxtəlif guşələrində məscidlər, kilsələr, sinaqoqlar təmir - bərpa edilir, yenidən qurulur. Fondun tolerantlıq prinsipinə və multikultural dəyərlərə əsaslanan bu cür tədbirləri - sistemli fəaliyyəti respublikamızın inzibati-coğrafi sərhədləri ilə məhdudlaşmır, bir çox ölkələri əhatə edir. Bərpa işlərinin dini mənsubiyyətindən asılı olmayaraq bütün abidələri əhatə etməsi Heydər Əliyev Fondunun bəşəri missiyasını, Azərbaycan xalqının tolerant və multikultural mahiyyətini əks etdirir. Yeri gəlmişkən, Fondun dəstəyi ilə Qubada dağ yəhudilərinin yığcam yaşadığı Qırmızı qəsəbədə ənənəvi yəhudi evi bərpa olunacaq. "Qırmızı qəsəbədə yəhudilərin ənənəvi evinin bərpası layihəsi" Amerika Birləşmiş Ştatlarının, İsrailin ölkəmizdəki səfirlikləri və Dağ Yəhudilərinin İrsi Mərkəzi ilə birlikdə həyata keçirilir. Bununla əlaqədar təşkil olunan tədbirdə də diqqətə çatdırılıb ki, Qubada dağ yəhudiləri ilə yanaşı, 20-dən çox etnik azlıqların nümayəndələri dostluq, qardaşlıq şəraitində, heç bir ayrı-seçkiliyə






məruz qalmadan birgə yaşayır. Dağ yəhudilərinə məxsus evin bərpası həm tarixi, həm də turistik baxımdan böyük əhəmiyyət daşıyır.

Təbii ki, Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən bu tədbirlər - görülən işlər Şərqlə Qərb arasında mənəvi körpü rolunu oynayan Azərbaycanın beynəlxalq miqyasda sivilizasiyalararası dialoqun inkişafına töhfəsi kimi də dəyərləndirilir, ölkəmizin humanitar sahədə ikitərəfli əlaqələrinin inkişafına, müsbət beynəlxalq imicinin gücləndirilməsinə, xalqlararası əməkdaşlığın möhkəmlənməsinə müsbət təsir göstərir. Bu, həmçinin Azərbaycan reallıqlarının təbliği olmaqla yanaşı, xalqımıza, dövlətimizə qarşı qara piar kampaniyasının iflasa uğradılması baxımından olduqca mühüm əhəmiyyətə malikdir. Şübhəsiz ki, coğrafi sərhədləri aşan bu xoşməramlı fəaliyyət beynəlxalq arenada - geniş qlobal platformada da olduqca yüksək qiymətləndirilir, Azərbaycanın bəşər sivilizasiyasının mənəvi xəzinəsinin zənginləşməsinə vacib töhfəsi kimi dəyərləndirilir. Bir sözlə, dünyanın gözü önündə biz qururuq, yaradırıq və yaşadırıq!

Bütövlükdə, Azərbaycan dünyaya nümunə göstərir - sülh şəraitində mehriban birgəyaşayış örnəyi nümayiş etdirir, tolerantlıq və multikultural dəyərləri təşviq edir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: "Əsrlər boyu ölkəmizdə bütün dinlərin, bütün etnik qrupların nümayəndələri bir ailə kimi sülh, mehribanlıq, dostluq, qarşılıqlı anlaşma şəraitində yaşamışlar. Azərbaycan çoxkonfessiyalı, çoxmillətli bir ölkədir və bu, bizim böyük sərvətimizdir. Dini və etnik müxtəlifliyimiz bizim böyük sərvətimizdir. Azərbaycanda uğurlu inkişafın, sabitliyin bərqərar olması istiqamətində atılmış bütün addımların arxasında dini və milli dözümlülük, tolerantlıq və multikultural dəyərlər dayanır".

*Nurlan QƏLƏNDƏRLİ*

# Avropanın ümid yeri




*Mübariz ABDULLAYEV*

Azərbaycanın Avropa İttifaqına (Aİ) üzv dövlətlərlə neft və qaz təchizatına dair müqavilələri yüksək səviyyədə yerinə yetirməsi, heç bir fors-major halına yol verməməsi, ədalətli enerji siyasəti həyata keçirməsi "qoca qitə"də ölkəmizə qarşı böyük inam formalaşdırıb. Təsadüfi deyildir ki, hazırda Rusiya-Ukrayna müharibəsi səbəbindən özünün eneri təhlükəsizliyinə, ələlxüsus da qaz təchizatına yaranan təhdidlər fonunda Avropa Azərbaycana üz tutaraq ölkəmizdən "mavi yanacaq" ixracını artırmağı istəyir. Respublikamızın Avropanın bu istəyini qarşılamağa geniş imkanları var. Bu barədə iqtisadiyyat naziri Mikayıl Cabbarov Davos İqtisadi Forumundakı çıxışında bildirib. "Azərbaycanın Avropaya qaz tədarükünü artırmaq üçün əlavə enerji resursları var", - deyə nazir vurğulayıb.

**"Qoca qitə"nin "mavi yanacaq" təchizatında çətinliklər**

Rusiya-Ukrayna müharibəsi fonunda "qoca qitə"nin "mavi yanacaq" təchizatında ciddi çətinliklər müşahidə edilir. Məsələ burasındadır ki, müharibədə Ukraynanı dəstəkləyən Avropa Rusiyanı zəiflətmək üçün bu ölkəyə çox fəal şəkildə müxtəlif məzmunlu sanksiyalar tətbiq edir. Rusiyadan enerji məhsullarının, o cümlədən də qazın ixracının məhdudlaşdırılması da "qoca qitə"nin hədəfləri sırasında yer alır. Öz növbəsində sanksiyalarla üzləşən şimal qonşumuz Avropanı cəzalandırmaq üçün müxtəlif vasitələrə əl atır. Aprelin 1-dən Rusiyadan "dost olmayan ölkələr"ə ixrac olunan qazın dəyərinin rublla ödənilməsini özündə ehtiva edən qərar qüvvəyə minib. Bu isə Aİ ölkələri üçün çox ciddi çətinliklər deməkdir. Artıq Rusiya yeni qaydalarla ödəniş aparmayan ayrı-ayrı ölkələrə qaz ixracını dayandırıb.

Qeyd edək ki, Avropanın "mavi yanacaq" təchizatında Rusiyanın böyük payı var. "Qoca qitə"nin illik qaz tələbatı 552 milyard kubmetrə bərabərdir. İndiyədək bu həcmin təxminən 40 faizi Rusiyadan idxal hesabına ödənilib. Eyni zamanda, Avropanın Rusiya qazından imtina etməsi şimal qonşumuzun böyük gəlir mənbəyindən məhrum qalması deməkdir. 2021-ci ildə qaz Rusiyaya gündəlik 200 milyon dollar valyuta gətirib ki, bu da illik 70 milyard dollara yaxın valyuta deməkdir. Verilən məlumatlara görə, Rusiya-Ukrayna müharibəsinin ilk 2 ayında Rusiyanın qlobal yanacaq məhsulları satışından əldə etdiyi 66.3 milyard dollar həcmində gəlirinin 70 faizi Avropa İttifaqının payına düşüb.

**Azərbaycanın imkanları**

Hazırda Avropa qaz təchizatında yaranan çətinlikləri aradan qaldırmaq üçün alternativ mənbələr axtarışındadır. Belə mənbələrdən biri Azərbaycandır. Respublikamızın cəlbediciliyi ilk növbədə ehtiyatların zənginliyi ilə bağlıdır. Xəzərin Azərbaycan sektorunda yerləşən "Şahdəniz" dünyanın ən zəngin qaz yataqlarından biridir. 1999-cu ildə kəşf olunan bu yatağın ehtiyatları 1,2 trilyon kubmetr qaz və 240 milyon ton kondensat həcmində dəyərləndirilir. Hazırda dünyada "mavi yanacağ"a artan tələbat nəzərə alınmaqla "Şahdəniz" yatağının istismarı genişləndirilir. Paralel şəkildə, "Ümid", "Babək", "Abşeron" yataqlarının da istismara hazırlanması intensiv şəkildə davam etdirilir. Cari ilin 4 ayı ərzində ölkəmizdə 15,7 milyard kubmetr təbii qaz hasil edilib. Bu, ötən ilin müvafiq dövrü üzrə göstəricidən 14,4 faiz, yəni təxminən 2 milyard kubmetr çoxdur. Energetika Nazirliyinin məlumatına əsasən, bu həcmin 4,6 milyard kubmetri "Azəri-Çıraq-Günəşli"dən, 8,5 milyard kubmetri "Şahdəniz"dən, 2,6 milyard kubmetri isə SOCAR üzrə hasil olunub.

Azərbaycanın müasir ixrac infrastrukturuna malik olması ölkəmizin digər üstünlüyüdür. Bu, Avropanın "mavi yanacaq" mənbələrini şaxələndirməyə çalışan ölkələri üçün çox vacib amildir. Dünyada qaz hasil edən çoxsaylı ölkələr var. Ancaq həmin ölkələrdən yanacağın Avropadakı istehlakçılara çatdırılması problemini aradan qaldırmaq və zəruri infrastruktur qurmaq üçün uzun illər, eləcə də böyük həcmlərdə maliyyə vəsaiti lazımdır. Azərbaycan isə zamanında Prezident İlham Əliyevin uzaqgörənliyi sayəsində belə bir ixrac infrastrukturu qurmağa nail olub. Respublikamızın moderatorluğu ilə tikilən ixrac kəməri - Cənub Qaz Dəhlizi Azərbaycanı Avropanın müxtəlif ölkələrinədək uzanır. Ötən il Avropa bu marşrutla Azərbaycandan 8 milyard kubmetrdən çox "mavi yanacaq" aldı. Cari ildə bu həcmin 10 milyard kubmetrədək artırılması nəzərdə tutulsa da, bəri başdan demək mümkündür ki, əvvəlcədən verilən proqnoz yenilənəcək. Cari ilin yanvar-aprel aylarında respublikamızdan ixraca 7,6 milyard kubmetr "mavi yanacaq" yönəldilib. Respublikamızın şaxələndirilmiş ixrac coğrafiyasına malik olduğunu diqqətə çatdıran Mikayıl Cabbarov bildirib ki, Azərbaycan Avropa ilə yanaşı, Gürcüstan və Türkiyə üçün də əsas təchizatçılardan biridir. "Sonra Yunanıstan, Bolqarıstan, Albaniya və İtaliya gəlir", - deyə İqtisadiyyat Nazirliyinin rəsmisi vurğulayıb.

**Cənub Qaz Dəhlizinin genişləndirilməsi**

Hazırda Avropada "mavi yanacaq" istehlakına artan tələbat nəzərə alınmaqla Cənub Qaz Dəhlizinin genişləndirilməsi qarşıda duran əsas vəzifələrdən biridir. Artıq xeyli müddətdir ki, bu məsələ Avropa çevrələrində müzakirə olunmaqdadır. Dəhlizin ayrı-ayrı seqmentlər üzrə genişləndirilməsi və texniki imkanlarının möhkəmləndirilməsi yolu ilə onun ötürücülük gücünün iki dəfə artırılaraq ildə 20 milyard kubmetrə çatdırılması imkanları tam realdır.



# Türkiyə şahinləri yenidən Bakı səmasında...

Bakıda baş tutacaq "Teknofest-2022" festivalına hazırlıqlar çərçivəsində qırıcı təyyarələrin uçuşu keçirilir. Türkiyə Hərbi Hava Qüvvələrinin qırıcıları - "Solo Türk" və "Türk Ulduzları" aviaqrupuna daxil olan təyyarələr Bakı səmasında məşq edirlər.

Aviaşou diqqətlə izlənilir, sosial şəbəkələrdə maraqlı görüntülər paylaşılır, fərqli fikirlər ifadə edilir. Eyni zamanda, iki qardaş ölkənin birliyi - həmrəyliyi, Türkiyənin 44 günlük Vətən müharibəsində Azərbaycana mənəvi-siyasi dəstəyi bir daha xatırlanır, üçrəngli və ay-ulduzlu bayraqlar yanaşı paylaşılır. Bu isə, heç şübhəsiz, qürur doğurur - milli iftixar hissimizi daha da gücləndirir.

Türk şahinləri bundan öncə bir neçə dəfə Azərbaycan səmasında dövrə vurublar. Hələ 24 avqust 2001-ci il tarixində Bakı səmasında türk pilotlarının uçuş keçirmələri yaddaşlardan silinməyib. O zaman Azərbaycana yönəlik təhdid və provakasiyalara qarşı "Türk Ulduzları" öz sözlərini demiş - adekvat mesajlarını vermişdilər. Bu, Azərbaycanın müstəqil siyasətinə qarşı mövqe tutanlara ciddi qardaş xəbərdarlığı idi.

2018-ci il iyunun 26-da Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi ilə bağlı Bakıda keçirilən hərbi paradda "Türk Ulduzları"nın yenidən Bakı səmasında görünməsi də maraqla qarşılanmışdı. Silahlı Qüvvələr Günündə Azərbaycanın hava məkanında qardaş ölkəyə məxsus qırıcıların hərəkəti dostluq və müttəfiqlik münasibətlərimizin nümayişi idi.

Bunlarla yanaşı, müxtəlif vaxtlarda keçirilən təlim-məşq uçuşları da Bakı səmasında Azərbaycan-Türkiyə birliyini əks etdirib.

Bugünkü mənzərə isə bir millətin iki dövlətinin birlikdə, o cümlədən yenilməz və məğrur olduğunu göstərir!

*ÜMİD*

# Yeni Əfv Sərəncamı...

## Kimlərə şamil olunacaq?

**P.İSMAYILOV**



Azərbaycanda insan hüquq və azadlıqlarının yüksək səviyyədə təmin olunması, hər bir fərdə sosial münasibətlər sistemində iştirak etmək üçün əlverişli şəraitin yaradılması dövlət quruculuğu prosesinin humanist səciyyəli prioritet istiqamətlərindən birini təşkil edir. Bu isə nəticə etibarilə çoxşaxəli humanizm siyasətinin həyata keçirilməsini şərtləndirən başlıca amillərdəndir. Bunlardan birini də azadlıqdan məhrumetmə və azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş şəxslərin əfv edilməsi ilə bağlı dövlət başçısı tərəfindən imzalanan əfv haqqında sərəncamlar, həmçinin amnistiya aktlarının qəbul olunması təşkil edir.

28 May Müstəqillik Günü münasibətilə əfv sərəncamının veriləcəyi gözlənilir. Aprel ayından mayın 23-nə qədər Azərbaycan Respublikasının Prezidenti yanında Əfv Məsələləri Komissiyasının iclasları keçirilib və əfvlə bağlı müvafiq müraciətlərə baxılıb. Komissiyanın iclaslarında baxılan müraciətlərin kateqoriyaları da açıqlanıb. Belə ki, komissiyanın indiyədək keçirilən iclaslarında əsasən ailə üzvləri Vətən müharibəsi iştirakçısı və qazisi olanların, yol-nəqliyyat hadisəsi törətmiş şəxslərin, əcnəbilərin, hərbi qulluqçuların və digər şəxslərin müraciətlərinə baxılıb.

Humanizm Azərbaycanda dövlət siyasətinin mühüm tərkib hissəsidir. Bu siyasətin və müsbət ənənənin təməli isə ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. Ümummilli Lider hər zaman mərhəmət, insanpərvərlik dəyərlərinə böyük önəm verib və bunu Öz fəaliyyəti boyu daim diqqət mərkəzində saxlayıb. Təsadüfi deyil ki, məhkumların cəzasının yüngülləşdirilməsi, yaxud onların cəzadan tam azad edilməsi tədbirlərini həyata keçirmək məqsədilə 1995-ci ildə Bağışlanma Məsələləri üzrə Komissiya yaradılıb, 2001-ci ildə isə o, Əfv Məsələləri üzrə Komissiya ilə əvəz olunub. Sevindirici haldır ki, Ulu Öndərin əsasını qoyduğu bu humanizm ənənəsi Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezident İlham Əliyevin hər il imzaladığı əfv sərəncamları minlərlə ailəyə sevinc gətirir. 2003-cü ildən indiyə qədər Prezident İlham Əliyev tərəfindən imzalanan 35 Əfv Sərəncamı ilə minlərlə insan cəzadan azad edilib və ya cəzası azaldılıb. Bu, cənab Prezidentin cəzanın humanistləşdirilməsi istiqamətində həyata keçirdiyi siyasətin nümunəsidir.

Bu mənada hər zaman nəcib, humanist təşəbbüsləri ilə ali insani dəyərlərə yüksək qiymət verən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezident Mehriban xanım Əliyevanın fəaliyyəti də xüsusi qeyd edilməldir. Mehriban xanım Əliyeva hər zaman insanların, ailələrin sevinməsinə, cəzasının müəyyən müddətini çəkmiş, törətdiyi əməldən peşman olmuş şəxslərin cəmiyyətə qayıtarılmasında mühüm rol oynayıb. Məhz Mehriban xanım Əliyevanın təşəbbüsü ilə 2007, 2009, 2013 və 2016-cı illərdə amnistiya elan edilib. Bu təşəbbüslər xeyirxahlıq və mərhəmət kimi mənəvi idealların təcəssümünə çevrilib.

Məsələ ilə bağlı fikirlərini bölüşən Əfv Məsələləri Komissiyasının üzvü, Konstitusiya Araşdırmaları Fondunun rəhbəri Əli-məmməd Nuriyev bildirib ki, komissiya bu ilin aprelin 26-dan mayın 23-nə kimi 6 iclas keçirib. Keçirilən iclaslarda 600-dən artıq daxil olmuş müraciətlər müzakirə olunub, rəylər qəbul edilib. Bu rəylər müvafiq strukturlara təqdim ediləcək: "Əfv komissiyası əfv hüququnun həyata keçirilməsini təşkilati və texniki cəhətdən təmin edən bir təsisatdır. Komissiyanın qəbul etdiyi qərarlar tövsiyə xarakterli rəylərdən ibarətdir. Əfv sərəncamı ilə bağlı məsələ cənab Prezidentin konstitusion səlahiyyətində olan bir məsələdir. Son qərar ölkə Prezidenti tərəfindən veriləcək".

**Əfv Məsələləri Komissiyası 600-dən artıq müraciətə baxıb**

Sonuncu əfv sərəncamının 2021-ci ilin mart ayında verildiyini xatırladan Ə.Nuriyev 2021-ci ilin noyabrında Amnistiya aktının qəbul edildiyini deyib. Onun sözlərinə görə, Azərbaycan dövlətinin hüquqi təbiəti, ölkə Prezidentinin fəaliyyəti hər zaman humanizmə və sosial ədalət prinsiplərinə söykənir.

"Azərbaycanın müstəqillik tarixinə nəzər salsaq, 1995-ci ildən bu günə qədər 67 əfv sərəncamı imzalanıb. Bu sərəncamlarla 9 mindən artıq şəxs cəzadan tam azad edilib və ya cəzası yüngülləşdirilib. 2003-cü ildən indiyə qədər Prezident İlham Əliyev tərəfindən 35 Əfv Sərəncamı imzalanıb. Bunun nəticəsində 5 minə qədər şəxs cəzadan azad edilib və ya cəzası azaldılıb. Bu, cənab Prezidentin cəzanın humanistləşdirilməsi istiqamətində həyata keçirdiyi siyasətin nümunəsidir. Ümumiyyətlə, cəzaların humanistləşdirilməsi prinsipi Prezident İlham Əliyevin çoxşaxəli fəaliyyətinin mühüm prioritetlərindən sayılır. 2017-ci ildə Azərbaycan Prezidenti tərəfindən imzalanan "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Sərəncam, 2019-cu ildə "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərman bunun bariz sübutudur. Görülən tədbirlər nəticəsində, azadlıqdan məhrumetmə cəzasının miqyası azaldı, cinayət məcəlləsində dekriminallaşmanın genişlənməsi kimi məsələlər öz həllini tapdı. 2017-2020-ci illərdə Cinayət Məcəlləsinə 600-dən artıq dəyişiklik edilib. Bu dəyişikliklər nəticəsində xeyli əməl dekriminallaşıb. Bir sıra cinayətlərin cəzasına görə alternativ cəzalar nəzərdə tutulub. Eləcə də, Ədliyyə Nazirliyində şərti azadetmə institutunun daha da təkmilləşdirilməsi ilə bağlı müvafiq komissiya yaradılıb. Bu komissiyanın 2013-cü ildən bu yana fəaliyyəti nəticəsində on minə qədər şəxs haqqında vaxtından əvvəl şərti azadetmə ilə bağlı rəylər verilib. Bütün bunlar Azərbaycanda cəza siyasətinin humanistləşdirilməsinin tətbiqinin nümunələridir", - deyə Ə.Nuriyev əlavə edib.

# Bütün yollar Azərbaycana aparır!

**Taleh AĞAVERDİYEV**



## Asiya ilə Avropanı birləşdirən tranzit qovşağı

Qlobal iqtisadiyyatın əsas komponentlərindən biri logistikadır. Ukraynadakı müharibə artıq koronavirus pandemiyasından ciddi şəkildə zərər çəkmiş ticarət əlaqələri sahəsində vəziyyəti daha da gərginləşdirib. Rusiyaya qarşı tətbiq edilən sanksiyalar və onun ölkələr arasında uzun illər mövcud olan qlobal logistika sistemindən kənarda qalması ciddi çətinliklərə səbəb olub. İsveçrənin Mediterranean Shipping Company (MSC), Danimarkanın Maersk, Fransanın CMA CGM, Almaniyanın Hapag-Lloyd daşıyıcısı, Ocean Network Express (ONE) Sinqapur alyansı və tayvan operatoru Yang Ming kimi aparıcı xarici logistika şirkətləri Rusiya bazarında işləməkdən imtina ediblər. Qlobal nəqliyyat və sığorta xərcləri artdı, bu da qida, avtomobil, tikinti, neft-kimya və nəqliyyat da daxil olmaqla, geniş spektrdə əsas sahələr üzrə qlobal istehsal-təchizat zəncirlərinə təsir etdi. Hətta Çin yükgöndərənləri malların təhlükəsizliyindən ehtiyat edərək, Rusiyadan keçməklə Aİ-yə malların tranzitini tədricən azaltmağa başlayıblar.

Çin və Avropa arasında ümumi ticarət dövriyyəsi ildə təxminən 120 milyon ton yük təşkil edir. Eyni zamanda, bu yüklərin xeyli hissəsi Rusiya ərazisindən keçən dəmir və avtomobil yolları ilə daşınıb. Buna görə də, sanksiyaların sərtləşdirilməsindən sonra Avropa İttifaqı narahatlıqla Çinin mallarının çatdırılması üçün logistikaya hansı istiqamətdə yenidən baxacağını və bunun son nəticədə Aİ iqtisadiyyatına nə qədər başa gələcəyini gözləyirdi.

Yaranan geosiyasi şəraitdə Azərbaycanın Avrasiya üçün mühüm nəqliyyat və ticarət qovşağı kimi əhəmiyyəti sürətlə artmağa başladı. Mövcud vəziyyət qlobal nəqliyyat şirkətlərini daha sabit və alternativ marşrutlar haqqında düşünməyə vadar edib. Və bu baxımdan Cənubi Qafqaz və Mərkəzi Asiya yeganə dayanıqlı tranzit imkanları kimi qiymətləndirilir. Qeyd edək ki, Azərbaycan ərazisindən keçən tranzit marşrutlarının bir sıra üstünlükləri var: siyasi sabitlik, müəyyən edilmiş qanunvericilik bazası, qısa tranzit məsafələri, marşrutların şaxələndirilməsi (Azərbaycanda istənilən istiqamətə çıxış imkanları var), malların çatdırılma sürəti. Bu gün Azərbaycan bütün maraqlı tərəflərə öz nəqliyyat və logistika potensialından daha da geniş istifadə etməyi təklif edə bilər. Məsələn, 2017-ci ildə açılan Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunu (TMTM, Orta Dəhliz kimi də tanınır), hansı ki, Cənub-Şərqi Asiya və Çindən başlayır, Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan, Türkiyədən keçməklə Avropaya kimi uzanır.

Artıq aprel ayında Çin Rusiyadan yan keçməklə Azərbaycan və Qazaxıstan ərazisindən Mannheim (Almaniya) istiqamətinə yeni dəmir yolu marşrutundan istifadə etməyə başlayıb. Qatarlar Qazaxıstan, Azərbaycan, Rumıniya, Macarıstan, Slovakiya və Çexiyadan keçir. İdman malları ilə yüklənmiş ilk qatar aprelin 13-də Sian şəhərindən bu marşrutla yola düşdü. Qeyd edək ki, əvvəllər Çindən Avropaya qatarlar yeni marşrutun əhatə etdiyi ölkə və regionlardan çox nadir hallarda keçirdi.

Mayın 10-da Rusiyada fəaliyyətini dayandırmış Finlandiyanın "Nurminen Logistics" nəqliyyat-logistika şirkətinin də ilk konteyner qatarı yeni marşrutla yola düşüb. Marşrut Çinin Çuntsin bələdiyyəsindən başlayıb və Qazaxıstan, Azərbaycan, Gürcüstan və Rumıniyadan keçərək Mərkəzi Avropaya gedib.

Mayın 18-də məlum olub ki, dünyanın ən böyük nəqliyyat və logistika şirkət qruplarından biri olan Danimarkanın A.P. Moller-Maersk şirkəti, həmçinin Çin və Avropanı birləşdirən yenilənmiş dəmir yolu servisini işə salıb. Yükdaşımalar Qazaxıstan, Azərbaycan, Gürcüstan və Rumıniya əraziləri ilə həyata keçiriləcək. Çatdırılma müddəti təxminən 40 gündür. Konteynerlər Çin və Qazaxıstan sərhədindəki Xorqos məntəqəsini keçdikdən sonra dəmir yolu ilə Qazaxıstanın Aktau stansiyasına çatır və oradan Bakıya gedən barjalara yenidən yüklənir. Onlar Azərbaycan paytaxtından dəmir yolu ilə Poti limanına, Gürcüstanın APM Terminals Poti operatorunun terminalına çatdırılır, oradan Rumıniyanın Konstansa limanına gedən gəmilərə yüklənir və oradan yük dəmir yolu ilə Avropanın müxtəlif məntəqələrinə çatdırılır.

Rusiya da öz ixrac-idxal yükləri üçün alternativ marşrutlar axtarır ki, bunlar arasında Azərbaycanın ərazisi getdikcə daha çox yada salınır - ölkəmiz "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin, eləcə də Türkiyə limanlarına çıxışı olan "Şimal-Qərb" nəqliyyat dəhlizinin keçdiyi məkandır.

Orta Dəhlizin inkişafına artan ehtiyaclar konkret addımların atılmasını tələb edir. TMTM-in inkişafı üçün Azərbaycan, Qazaxıstan və Gürcüstan martda tariflər, yük bəyannaməsi, vahid IT həllərdən istifadə və tranzit yüklərin konsolidasiyası ilə bağlı məsələləri həll edəcək birgə müəssisənin yaradılması barədə razılığa gəliblər. Birgə müəssisə 2023-cü ilin əvvəlində və ya ortalarında qeydiyyatdan keçəcək. Yeni qurum çərçivəsində beynəlxalq Şimal-Cənub dəhlizinin Xəzər dəniz limanlarına qoşulması və dəhlizin İran, Fars körfəzi ölkələri, Şimali Afrika və Hindistanı daxil etməklə genişləndirilməsi nəzərdə tutulur.

Xatırladaq ki, aprelin ortalarında Qazaxıstan və Azərbaycan dəmir yolu idarələri logistika sahəsində birgə layihələrin həyata keçirilməsinə dair Saziş imzalayıb, TMTM üzrə multimodal daşımaların gələcək inkişafı məsələlərini müzakirə ediblər. Bundan başqa, Azərbaycan, Gürcüstan və Qazaxıstanın hakimiyyət orqanlarının tranzitin asanlaşdırılmasına dair üçtərəfli saziş layihəsini imzalamağı planlaşdırdığı açıqlanıb. Bu layihə hələ 2016-cı ildə Asiya İnkişaf Bankının maliyyə dəstəyi ilə Azərbaycan, Gürcüstan və Qazaxıstan gömrük xidmətləri tərəfindən hazırlanıb. Saziş TRASEKA dəhlizində (Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin təşkili üzrə Aİ və tərəfdaş ölkələr arasında beynəlxalq əməkdaşlıq proqramı) daşıyıcıların işini təkmilləşdirəcək və sadələşdirəcək. Gürcüstan tərəfindən bu sistemin işə salınması 2023-cü il yanvarın 1-dən gözlənilir. İndiki şəraitdə TRASEKA nəqliyyat dəhlizinin inkişafı da həm Azərbaycan daşıyıcıları, həm də ölkənin tranzit potensialının inkişafı baxımından son dərəcə vacibdir. Bundan əlavə, mayın 19-da Azərbaycanın yüklərin tranziti üçün yol vergisinin ləğvinə yönəlmiş qanun layihəsi hazırladığı açıqlanıb. Həmçinin beynəlxalq yükdaşımaların elektronlaşdırılması çərçivəsində eTIR prosedurunun işə salınması nəzərdə tutulur.

Azərbaycan ərazisindən keçən marşrutlara marağın artması ölkəmizin iqtisadi mövqeyini gücləndirməklə yanaşı, dövlət gəlirlərini də artırmağa imkan verir. Belə ki, bu ilin yanvar-mart aylarında TRASEKA çərçivəsində Azərbaycan ərazisindən daşınmış yüklərin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 6,7%, yük dövriyyəsi isə 6,3% artıb. Azərbaycanın Avropa ölkələri ilə ticarət dövriyyəsi də kəskin artıb. 2022-ci ilin yanvar-aprel aylarında o, 8,197 milyard dolları (105,29 faiz və ya 4,204 milyard dollar artıb) ötüb və Avropa dövlətlərinin Azərbaycanın ümumi xarici ticarət dövriyyəsindəki payı 79,74 faiz (artım 11,73 faiz) təşkil edib. Ümumilikdə, 2022-ci ilin yanvar-aprel aylarında Azərbaycanın xarici ticarət dövriyyəsi bütövlükdə ötən ilin müvafiq dövrü ilə müqayisədə 60,35 faiz və ya 5,97 milyard dollar artaraq 9, 893 milyard dollardan 15, 863 milyard dollara yüksəlib.

Beləliklə, yeni geosiyasi reallıq Azərbaycana dünya səviyyəli və əhəmiyyətli tranzit qovşağına çevrilmək, Avropa ilə Asiya arasında bir növ körpü olmaq üçün tarixi şans verib. Bütün bunlar isə uzun illər əvvəl ölkəmizdən keçən nəqliyyat marşrutlarına kommersiya tələbatını proqnozlaşdıran Prezident İlham Əliyevin uzaqgörən siyasəti ilə bağlıdır. Dövlətimizin başçısının həyata keçirdiyi siyasət çərçivəsində son illər ölkənin nəqliyyat potensialının inkişafı istiqamətində çox böyük işlər görülüb, nəqliyyat sektorunun sabit inkişafı təmin edilib. Genişmiqyaslı tədbirlərin, iri infrastruktur layihələrinin (Bakı-Tbilisi-Qars dəmir yolu, dəmir yolu sisteminin yenidən qurulması, dəmir yolu parkının yenilənməsi, bərə və quru yük donanmasının inkişafı, Ələt azad iqtisadi zonasının yaradılması) həyata keçirilməsi Azərbaycanın nəqliyyat və logistika infrastrukturunun inkişafına töhfə verdi ki, bu da hazırda beynəlxalq dəhlizlər üzrə yüklərin daşınmasını xeyli asanlaşdırır.



# Müharibə bitsə də...

## İnformasiya cəbhəsində savaş davam edir

*Mübariz FEYİZLİ*

44 günlük Vətən müharibəsi Azərbaycanın son 200 illik tarixinin ən şanlı səhifəsidir. Müharibədə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında döyüşən Silahlı Qüvvələrimiz 30 illik işğal faktına son qoydu. 300-dən çox yaşayış məntəqəsi bilavasitə döyüş meydanında geri qaytarıldı. Ağdam, Kəlbəcər, Laçın rayonları isə 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata əsasən qan tökülmədən respublikamıza qaytarıldı. Beləliklə, respublikamız hərbi-siyasi yolla özünün ərazi bütövlüyünü təmin etməyə nail oldu.

Lakin müharibə başa çatsa da, informasiya cəbhəsində savaş davam edir. Postmüharibə dövründə qalib Azərbaycanın qarşısında böyük vəzifələr durur. Bu vəzifələrdən biri işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışı təmin etməkdirsə, digəri, erməni vandallarının işğal illərində və müharibə dövründə törətdikləri cinayətləri bütün dünya ictimaiyyətinə çatdırmaqdır.

**Ermənistanın çoxsaylı müharibə cinayətləri**

İşğaldan azad edilmiş ərazilərdən təqdim olunan foto və video materiallardan göründüyü kimi, erməni vandalları üç onillik ərzində şəhər və kəndlərimizdə hər şeyi dağıdaraq yerlə-yeksan ediblər. Prezident İlham Əliyevin dəfələrlə ifadə etdiyi kimi, sanki bu yerlərdən vəhşi qəbilələr gəlib keçiblər və öz yolları üzərində hər şeyi talayıblar. İşğal illərində ermənilər ulu əcdadlarımızdan bizə miras qalan tarixi dini-mədəni abidələrimizi ya tamam dağıdıb, ya da təhqirlərə məruz qoyublar.

İşğal dövründə erməni qəsbkarları Azərbaycanın təbiətinə böyük ziyan vurublar. Onlar xaricdəki havadarlarının dəstəyindən bəhrələnməklə təbii sərvətlərimizi qeyri-qanuni şəkildə istismar ediblər. Meşələrimiz qırılarq qiymətli ağaclar mebel sənayesində istifadə olunması məqsədilə baha qiymətə satılıb. Çayların, anbarların suyundan ölkəmizə qarşı təzyiq vasitəsi kimi istifadə olunub. Ermənilərin Oxçuçayı ölü su mənbəyinə çevirmələri ekologiyamıza vurulan ağır zərbədir.

Erməni vandallarının ikinci Qarabağ müharibəsi günlərində törətdikləri cinayətlərin siyahısı da çox uzundur. Təcavüzkar Ermənistan beynəlxalq hüququn norma və prinsiplərini, o cümlədən "Silahlı münaqişələr zamanı mülki şəxslərin müdafiəsinə dair" 1949-cu il Cenevrə Konvensiyasının tələblərini kobud şəkildə pozaraq dinc əhaliyə qarşı çoxsaylı terror əməllərini törədib. Müharibənin davam etdiyi 44 gün ərzində Ermənistanın hərbi birləşmələri tərəfindən azərbaycanlı dinc əhalinin sıx yaşadığı rayon və şəhərlərin ərazisinə 30 minə yaxın mərmi və 227 raket atılıb. Döyüş meydanında məğlub duruma düşən ermənilər bunun əvəzini Gəncəyə, Mingəçevirə, Tərtərə, Bərdəyə, Qəbələyə və digər yaşayış məntəqələrimizə raket zərbləri endirməklə çıxmağa çalışırdılar. O cümlədən erməni silahlı birləşmələri şəhər və kəndlərimizi, mülki infrastrukturu və dinc əhalini hədəfə alarkən "Toçka-U", "Smerç", "Skad" və digər belə dağıdıcı silahlardan istifadə ediblər.

**Kütləvi məzarlıqlar**

Postmüharibə dövründə Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası Birinci Qarabağ müharibəsində itkin düşmüş vətəndaşlarımıza aid məzar yerlərinin müəyyən edilməsi və ekshumasiyası işlərinə başlayıb. Baş Prokurorluğun İstintaq İdarəsinin müstəntiqləri tərəfindən məhkəmənin meyitlərin ekshumasiyası haqqında qərarına əsasən, Kəlbəcər rayonunun Başlıbel kəndində müvafiq istintaq hərəkətləri keçirilərək torpağa basdırılmış və kəskin çürüməyə məruz qalaraq skletləşmiş 12 nəfərin meyitlərinin qalıqları aşkar edilib.

Bundan başqa, işğaldan azad edilmiş ərazilərdə Birinci Qarabağ müharibəsi zamanı əsir-girovluqda olmuş şəxslərin şahid ifadələrinə əsasən aparılan axtarış-araşdırma tədbirləri nəticəsində Xocavənd rayonunun Edilli kəndində və Füzuli şəhəri ərazisində də kütləvi məzarlıqlar aşkar edilib. Son olaraq isə cari il martın 28-də Xocalı rayonu ərazisindəki Fərrux yüksəkliyində bir neçə insana aid naməlum meyit qalıqları aşkarlanıb. Ümumilikdə araşdırmalara görə, işğaldan azad edilən Ağdam, Füzuli, Xocavənd və Şuşa şəhərinin ətraflarında belə məzarlıqlar mövcuddur. Ərazilər minalardan təmizləndikcə bu məzarlıqlar da aşkara çıxarılacaq.

**Erməni mifi dağılır**

Bütövlükdə, Ermənistanın müharibə cinayətlərinin siyahısı çox uzundur. Ancaq sadalanan faktlar da erməni vandalizmi barədə konkret təsəvvür yaratmaq üçün yetərlidir. Bir vaxtlar ermənilər yalan təbliğat nəticəsində özləri barədə "mədəni xalq" mifini formalaşdırmışdılar. Artıq yalan üzərində bərqərar olan bu mif dağılmaqdadır. Postmüharibə dövründə xarici media təmsilçilərinin, diplomatik korpusun təmsilçilərinin, din xadimlərinin Vətən müharibəsində işğaldan azad edilmiş ərazilərə, o cümlədən də Şuşaya çoxsaylı səfərləri təşkil olunub. Onlar bu yerlərdə şahidi olduqları mənzərələrdən dəhşətə gəldiklərini bildiriblər. İsveçrəli jurnalist, "Wochenzeitung" və "Neues Deutschland" nəşrlərinin əməkdaşı Andre Vedmer işğal altındakı ərazilərdə tarixi abidə və qəbiristanlıqların acınacaqlı vəziyyətinin şahidi olaraq Azərbaycanın Şuşa və Ağdamdakı bir çox mədəniyyət abidələrinin məhv edildiyini və ya ciddi zədələndiyini təsdiqləyib. Digər bir əcnəbi jurnalist - Qafqaz üzrə tanınmış mütəxəssis, britaniyalı Tomas de Vaal Ağdamda ermənilər tərəfindən törədilmiş dağıntıları II Dünya müharibəsində dağıdılan yapon şəhərləri Xirosima və Naqasaki ilə müqayisə edərək, Ağdamı "kiçik Xirosima" adlandırıb.

Almaniyanın nüfuzlu "Spiegel" dərgisində jurnalist Andre Vidmerin müəllifi olduğu "Dağıdılmış ərazilərə geri qayıdış" adlı məqalə dərc olunub. Məqalədə jurnalistin Ağdamın iki sakini ilə onların doğulub boya-başa çatdığı şəhərə səfər təəssüratları əks olunub. Müəllif qeyd edir ki, Ermənistan üzərində qələbə çaldıqdan sonra Azərbaycan bir zamanlar yüz minlərlə azərbaycanlının tərk etdiyi əraziləri geri qaytarıb. Həmin ərazilərə geri qayıdanlar isə minalanmış xarabalıqlarla üzləşirlər.

Xarici mediada ermənilərin dağıtdıqları şəhər və kəndlərimizin sürətlə bərpa olunduğu barədə də materiallar dərc olunur. Bir qədər bundan əvvəl baş qərargahı ABŞ-ın Nyu-York şəhərində yerləşən Xarici Siyasət Assosiasiyasının xəbər saytında erməni işğalından azad olunduqdan sonrakı müddət ərzində Şuşada həyata keçirilən bərpa-quruculuq işlərindən bəhs edən "Müharibədən dağılmış Qarabağ bölgəsindəki Şuşa son bir ildə necə dəyişib?" sərlövhəli məqalə dərc olunub.

Siyasi şərhçi Reyçel Avraham müəllifi olduğu məqalədə bir qədər bundan əvvəl Azərbaycanın mədəniyyət paytaxtında keçirilən Beynəlxalq Qida Festivalında iştirak etmək üçün Şuşaya etdiyi səfər zamanı şahidi olduqlarını keçən il İsrailin sabiq rabitə, kibertəhlükəsizlik və peyk naziri Ayub Kara ilə Azərbaycana səfəri çərçivəsində Şuşada gördükləri ilə müqayisə edib və son bir il ərzində burada əldə olunmuş tərəqqini görməkdən keçirdiyi heyrət hissini gizlətməyib.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması" istiqaməti üzrə hazırlanmışdır

# Türkiyə - regional təhlükəsizliyin əsas təminatçısı

## Ərdoğan növbəti dəfə qətiyyətli mövqe sərgilədi

*Pərviz SADAYOĞLU*

Son illərdə mühüm siyasi-iqtisadi, hərbi inkişaf yolu qət etmiş, artıq Yaxın Orta Şərqin və Avropanın aparıcı güc mərkəzinə çevrilən Türkiyə regional təhlükəsizliyin əsas təminatçısı kimi çıxış etməkdədir. Rusiya-Ukrayna müharibəsi ilə başlanan yeni siyasi düzəndə əhəmiyyətli yer tutan Türkiyə bir sıra həyati məsələlərin həllində vahid ünvana çevrilib. BMT Baş katibi Antonio Quterreşin Türkiyəni Rusiya-Ukrayna münaqişəsinin sülh yolu tənzimlənməsi istiqamətində əsas tənzimləyici elan etməsi təsadüfi sayıla bilməz. Rəsmi Ankara tutduğu mövqe, nümayiş etdirdiyi qətiyyətlə bütün tərəflərin etimadını qazanıb.

Rusiya ilə Ukrayna arasındakı müharibənin miqyası genişlənməyəcəyi təqdirdə belə post-müharibə dövrünun olduqca fərqli mənzərə yaradacağı hər kəsə bəllidir. Bu "tabloda" mühüm yerlərdən biri isə məhz Türkiyənin qərarlaşacağı mövqedir. Qısa zamanda milli müdafiə sənayesində inqilabi dəyişikliklərə imza atan dövlət yeni formatda qlobal siyasətin əsas oyunçularından birinə çevrilib. Ortaya qoyulan mövqe, nümayiş etdirilən qətiyyət də məhz bundan xəbər verir.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın mayın 23-də Nazirlər Kabinetinin iclasının ardından verdiyi açıqlamalar istər regional, istərsə də qlobal siyasətə mühüm yön dəyişiklikləri vəd etməkdədir. Türkiyə liderinin səsləndirdiyi fikirlər növbəti dəfə gündəmin mühüm müzakirə obyektinə çevrilir...

**Türkiyə anti-terror əməliyyatlarında israrlıdır - cənub sərhədi möhkəmləndirilir**

Çıxışında Prezident Ərdoğan ilkin növbədə ölkəsinin təhlükəsizliyinin təminatı ilə bağlı məsələyə aydınlıq gətirib. O bildirib ki, Türkiyə Silahlı Qüvvələri ölkə sərhədlərində antiterror əməliyyatlarına başlayacaq və bu məsələ ilə bağlı yaxın vaxtlarda qərar veriləcək. Türkiyə lideri bildirib ki, davam edən hücumlar fonunda sərhədlərimizdə təhlükəsizliyin təmin edilməsi ilə bağlı vəzifələrimizi davam etdirəcəyik. Tezliklə sərhədlərimizdə yeni əməliyyatlara başlanacaq. Bundan başqa, Türkiyə, eyni zamanda, cənub sərhədləri boyunca 30 km dərinlikdə təhlükəsizlik zonasının yaradılması prosesini başa çatdırmaq niyyətindədir. "Türkiyəyə təhdid yaradan terror təşkilatlarına hər cür dəstək verərək onları qoruyanlar təkəbbürlü davranışlarından əl çəksinlər", - dövlət başçısı əlavə edib.



Qeyd olunmalıdır ki, R.T.Ərdoğanın bu fikirlərinin arxasında əməli fəaliyyət dayanır. Türkiyə mətbuatının yaydığı xəbərə görə, MİT Şimali İraqın Mahmur şəhərində keçirdiyi nöqtə əməliyyatı ilə PKK liderlərindən "Ahmet Rubar" kod adlı Mehmet Ərdoğanı avtomobilində zərərsizləşdirib. Bu addım həm də Türkiyənin növbəti "mesajı" kimi dəyərləndirilməlidir. Cənub sərhədləri boyunca 30 km dərinlikdə təhlükəsizlik zonasının yaradılması bəzi dünya güclərinin Türkiyəyə qarşı apara biləcəyi və ya planlaşdırdığı "oyunların" qarşısını almaq üçün mühüm addımdır. Son dövrlərdə Türkiyənin qəti şəkildə milli maraqlarına uyğun siyasətdə israrlı olması, hətta NATO ilə bağlı bir sıra məsələlərdə də milli mənafedən çıxış etməsi mühüm gözlə görüləcək "narahatlıqlar" yaradır. Bu mənada, Ərdoğanın bu bəyanatı həm də əzələ nümayişidir. Türkiyənin cənub sərhədinin hansı nüfuz dairələrinə mənsub olması heç kimə sirr deyil. Bu bəyanat həmin ölkələrin verəcəkləri qərarların iki dəfə düşünülməsi üçün "verilən müddət" və ya şansdır.

**"İpə un sərmək siyasəti"ndən imtina edilməlidir - Türkiyə yazılı razılaşma istəyir**

Prezident Ərdoğan gündəmin əsas mövzularından olan İsveçin və Finlandiyanın NATO üzvlüyünə qəbulu məsələsinə də toxunub. Bəlli olduğu kimi, Türkiyə bu məsələdə alyansın digər üzvlərindən fərqli mövqe nümayiş etdirir və adıçəkilən dövlətlərin terror təşkilatlarına münasibətdə mövqelərinə aydınlıq gətirməsini istəyir. Türkiyə lideri bildirib ki, NATO, o cümlədən üzv olduqları digər beynəlxalq təşkilatlarda oynadıqları həyati rol hər kəsə aydın olsa da, hələ də bəzi müttəfiqlərlə sanksiyaların ləğvi müzakirələri aparılır: "İsveçin bizə qarşı indiki sanksiyalarını kənara qoya bilmərik. Onlar üçün ağlabatan izahat yoxdur. Müttəfiqlik həmrəyliyinin ən yüksək səviyyədə saxlanmalı olduğu bir zamanda "ipə un sərmək siyasəti"ndən imtina edilməli, terrorla mübarizədə Türkiyənin haqlı gözləntiləri, xüsusilə dəstək və sanksiyaların ləğvi həll edilməlidir. Biz əməlimizlə NATO-nun haqqını verən ölkə olaraq milli təhlükəsizliyimizlə bağlı ucu açıq diplomatik bəyanatlar deyil, konkret addımlar görmək istəyirik. İnanırıq ki, əsas təhlükəsizlik həssaslıqlarını nəzərə almayan genişlənmə siyasəti nə bizə, nə də NATO-ya heç nə etmir"".

Bu fikirlər növbəti dəfə Türkiyənin öz mövqeyində qəti olduğunun göstəricisidir. Təsadüfi deyil ki, Fələstində rəsmi səfərdə olan Türkiyə XİN rəhbəri Mövlud Çavuşoğlu da İsveçin və Finlandiyanın NATO-ya üzvlüyü məsələsinə toxunub. O bildirib ki, həmin dövlətlər Türkiyənin tələbləri ilə bağlı konkret addımlar ata biləcəklərini desələr də, rəsmi Ankara yazılı razılaşma istəyir.

Davos Dünya İqtisadi Forumunda çıxış edən NATO-nun baş katibi Yens Stoltenberq isə Türkiyənin İsveç və Finlandiyanın NATO üzvlüyünə dair narahatlığı ilə bağlı həll yolunun tapılacağına əmindir. O bildirib ki, NATO Türkiyənin narahatlıqlarını həll etməlidir. NATO baş katibi Türkiyənin terror hücumlarından ən çox zərər çəkən NATO üzvü olduğunu diqqətə çatdırıb.

Stoltenberqin bu açıqlaması isə Türkiyənin hazırkı qlobal siyasətdə oynadığı rolu daha aydın göstərir. NATO baş katibi anlayır ki, Rusiya ilə müharibə lokal çərçivədən NATO müstəvisinə transfer olunarsa, İsveç və Finlandiyanın bu qarşıdurmada oynayacağı rol Türkiyə ilə nisbətdə qat-qat zəif ola bilər. NATO üçün Türkiyə istər ordusunun gücü, istərsə də regional güc mərkəzi olaraq həyati anlam daşımaqdadır.

**Ərdoğan Ağ Evə səsləndi**

Rəcəb Tayyib Ərdoğan açıqlamalarında Yunanıstanın baş naziri Kiryakos Miçotakisin ABŞ səfərinə də toxunub. Xatırladaq ki, yunanıstanlı baş nazir ABŞ səfəri çərçivəsində Konqresdə çıxış edib. F-16-ların Türkiyəyə satışı məsələsini gündəmə gətirən Miçotakis Amerika Konqresi üzvlərindən bu mövzuda Şərqi Aralıq dənizində baş verənləri nəzərə almalarını istəyib. "Kiprdə iki dövlət həllini heç vaxt qəbul etməyəcəyik", deyən Mitsotakis dolayısı ilə ABŞ-dan təyyarələrin Türkiyəyə verilməməsini istəyib.

Bunun qarşılığında isə R.T.Ərdoğan daha sərt ifadələri ilə yadda qalıb. O, "mənim üçün artıq Miçotakis adlı şəxs yoxdur. Sözünün üstündə duracaq hörmətli siyasətçilərlə yol gedərik", deyib. "Qoy Miçotakis özü haqqında düşünsün. Bizə yetər. Mən də hesab edirəm ki, ABŞ F-16-larla bağlı Migotakisin ağzına baxıb qərar verməyəcək", - Türkiyə lideri bildirib. Ərdoğan bu il Yunanıstanla keçirilməsi nəzərdə tutulan Strateji Şura Toplantısının ləğv edildiyini də vurğulayıb və Miçotakislə belə bir görüşə heç vaxt razı olmayacağını dilə gətirib.

Yunanıstan hökumətinin sözçüsü Yannis İkonomu Ərdoğanla qarşılıqlı polemikaya girməyəcəklərini açıqlayıb. Baş nazir Kiryakos Miçotakis isə Yunanıstan televiziyasına müsahibəsində Türkiyə lideri ilə görüşüb müzakirə aparmaq niyyətini dilə gətirib.

Görünən budur ki, artıq Türkiyənin bölgədə oynadığı əsaslı rol dünya miqyasında qəbul edilməkdədir. Azərbaycanın strateji müttəfiqi olan rəsmi Ankara yeni mərhələdə ortaq maraqlar çərçivəsində formalaşacaq siyasi-iqtisadi, hərbi proseslərin əsas yönvericisi rolunda çıxış edəcək.

**Analitiklər dağıdıcı müharibə poliqonuna çevrilən Ukraynanı dadlı piroqa bənzədirlər. Bu ölkənin hazırkı çətinlikləri fonunda “yetimə cancan” deyən ayrı-ayrı ölkələr və beynəlxalq təşkilatlar bu piroqdan özlərinə pay götürmək və siyasi-iqtisadi dividendlər qazanmaq istəyirlər. Proseslərin gedişindən o nəticə hasil olur ki, Ukraynanın suverenliyi və ərazi bütövlüyü də təhdidlər altındadır. Nə qədər qəribə görünsə də, təhlükələr həm də dostlardan gözlənilir.**



# Ukrayna əraziləri Polşanın hədəfində...

## Rusiya sərhədlərinə yaxınlaşmaq üçün yeni plan

*Mübariz ABDULLAYEV*

**Polşanın köhnə iddiaları yeni situasiyada**

Müharibədə Polşa Ukraynanın ən qızğın tərəfdarlarından biri qismində çıxış edir. Bu ölkə Rusiyanın zəifləd ilməsinə hesablanan sanksiyaların hazırlanmasında və tətbiqində yüksək fəallıq nümayiş etdirir. Sosial şəbəkələrdə Şimali Atlantika Alyansına (NATO) məxsus texnikanın məhz Polşa ərazisindən Ukraynaya daşınmasını əks etdirən foto və video materiallar yayımlanıb. Bundan başqa, müharibə səbəbindən doğma ev-eşiklərini tərk etmək məcburiyyətində qalan ukraynalı qaçqınların böyük bir ordusu Polşada sığınacaq tapıb.

Ancaq belə görünür ki, bütün bunlar Polşanın Ukraynaya qarşı iddialarından vaz keçməsinə əsas olmayıb. Söhbət bu ölkənin zaman-zaman gündəmə gətirdiyi ərazi iddialarından gedir. Ukraynanın müharibəyə cəlb olunması və çətinliklərlə üz-üzə qalması məsələni yenidən aktuallaşdırıb. Özü də indi Polşa “Ukrayna piroqundan” dadmaq və pay götürmək istəyində tək deyil.

**Ukraynanın özü də Polşanın istəyinə “hə” deyir**

Təzadlıdır, ancaq bu dəfə Ukraynanın özü də Polşanın istəyinə “hə” deyir. Daha doğrusu, hazırda ölkənin qərb ərazilərinin Polşaya qatılması ilə bağlı Ukraynada müzakirələr başlayıb. Belə bir iddia ilə Rusiya Dövlət Dumasının deputatı Mixail Şeremet çıxış edib. “Zelenski dərk edib ki, ölkəsinin çöküşü qaçılmazdır. Ukraynanın cənub-şərq hissəsi artıq itirilib. Buna görə də o, ölkəsinin qərb ərazilərini faktiki olaraq Polşanın nəzarəti altına keçirmək kursu götürüb. Bu plan isə Polşanın köhnə istəyi ilə üst-üstə düşür”, -deyə M. Şeremet vurğulayıb. Dövlət Dumasının deputatı əlavə edib ki, indi Zelenskinin “Ukrayna xalqının qayğılarını azaltmaq” bəhanəsi ilə bu planı reallaşdırması üçün əlverişli situasiya formalaşıb.

Hazırda Ukraynanın qərb ərazilərinin Polşaya birləşdirilməsinin hüquqi əsasları öyrənilir. Bildirilir ki, prezident Zelenski Polşa ilə Ukrayna arasında sərhədlərin ləğvini özündə ehtiva edən sənədin imzalanmasının anonsunu verib. O bəyan edib ki, ölkələrimiz arasında sərhədlər olmamalıdır, çünki Ukrayna və Polşa xalqlarının artıq çoxdan bölünməsi heç nəyi yoxdur. Verilən məlumatlarda o da qeyd olunur ki, prezident Zelenski, eyni zamanda, Polşa vətəndaşlarının Ukraynada xüsusi hüquqi statusu ilə bağlı qanun layihəsinin ali radanın müzakirəsinə çıxarılması təklifini də irəli sürüb. Söhbət Polşa vətəndaşlarına Ukrayna ərazisində seçki hüququ istisna olmaqla digər bütün hüquqların verilməsindən gedir.

**NATO və Rusiya qonşuluqda**

NATO Ukrayna ərazisində Rusiya ilə qonşu ola bilmədi və yaxud hələlik buna müyəssər olmayıb. Dağıdıcı müharibənin başlamasının bir səbəbi kimi də alyansın Ukraynada Rusiya sərhədlərinə doğru genişlənməsi istəyi ilə bağlı olduğu bildirilir. Rusiya NATO-nun onun sərhədlərində “lövbər” salmaq cəhdlərini həzm edə bilmədi və müharibə düyməsi basıldı. Alyansın üzvü olan ölkələr müharibənin əvvəlindən Ukraynaya hərtərəfli dəstək göstərmələrinə rəğmən, hələlik NATO-nun hadisələrin gedişinə açıq müdaxiləsi yoxdur. Ekspertlərin qənaətinə görə, Ukrayna ərazilərinin bir hissəsinin Polşaya qatılması və yaxud iki ölkə arasında sərhədlərin aradan qaldırılması Şimali Atlantika Alyansının Rusiya sərhədlərinə doğru genişlənməsinin yeni planıdır. Planın baş tutacağı təqdirdə alyansın bu dəfə Ukrayna-Polşa ərazisində Rusiyanın arzuolunmaz qonşusuna çevriləcəyi tam realdır.

Rusiyanın NATO-nun sözügedən genişlənmə planına qəzəbli münasibəti özünü çox gözlətməyib. Bu arada şimal qonşumuzun müxtəlif dairələrindən Ukrayna ilə Polşa arasında ehtimal olunan ərazi mübadiləsinə kəskin reaksiyalar gəlməkdədir. Rusiya Xarici İşlər Nazirliyinin təmsilçisi Mariya Zaxarova özünün Teleqram kanalında Ukrayna prezidentinin ölkəsinin ərazisində Polşa vətəndaşlarına xüsusi statusun verilməsi ilə bağlı qanunvericilik təşəbbüsünü şərh edib. O, bunu Ukraynanın suverenliyinə qəsd kimi dəyərləndirib.

Rusiyanın Dövlət Dumasının təhlükəsizlik və korrupsiyaya qarşı mübarizə komitəsinin üzvü Adalbi Şxaqoşev isə bildirib ki, Polşanın Ukrayna ərazilərinin bir hissəsini özünə götürməyə hazır olması ilə bağlı danışıqlar real müştəviyə keçmək üzrədir. Onun sözlərinə görə, Zelenskinin və Polşanın üz tutduqları “bu çox təhlükəli kompaniya” Rusiya və NATO hərbi qüvvələrini qarşı-qarşıya qoya bilər.

Qeyd edək ki, Polşa NATO-nun üzvüdür. Bir qədər bundan əvvəl ölkənin prezidenti Andjey Duda Ukraynada eskalasiyanın artması fonunda alyansı daha sərt davranış nümayiş etdirməyə çağırmışdı. Kiyevdən qayıdan Polşa lideri jurnalistlərə müsahibəsində bəyan edib ki, NATO özünün şərq cəbhəsini gücləndirməlidir. “NATO qətiyyətlə hərəkət etməli, şərq cəbhəsini möhkəmlətməli və potensial aqressorun - Rusiyanın dayandırılması üçün məqsədyönlü siyasətini davam etdirməlidir”, - deyə Polşa lideri vurğulayıb. Onun qənaətinə görə, NATO-nun Madriddə keçiriləcək sammitində elə qərarlar qəbul edilməlidir ki, alyansa üzv olan şərq ölkələri qurumun çətiri altında özlərini tam təhlükəsiz hiss etsinlər.

# Sülh, yoxsa müharibə...

## Ermənistan müharibəyə hazırdırmı?

*Nicat*

**Erməni politoloq Hayk Sukiasyan Brüsseldə keçirilən Azərbaycan, Ermənistan və Avropa Birliyi liderlərinin görüşünü şərh edərkən deyib ki, əgər Azərbaycanla münasibətləri normallaşdırmaq istəmiriksə, alternativ müharibədir.**

Ekspert Brüssel formatında məsələlərin tezliklə həll olunacağına ümid etmədiyini bildirsə də, bunun Rusiyanın vasitəçiliyi ilə aparılan prosesdən daha səmərəli ola biləcəyini söyləyib.

Brüsseldə əldə edilmiş anlaşmaya uyğun olaraq yaxın günlərdə Azərbaycan-Ermənistan sərhəd komissiyalarının ilk birgə iclasının keçiriləcəyinə toxunan Sukiasyan vurğulayıb ki, bu prosesin tez və sülh yolu ilə həyata keçirilməsi Ermənistanın maraqlarına uyğundur:

“Ancaq deyim ki, bu, uzun bir proses olduğundan çox çətin olacaq. Əgər bu proseslər Brüsseldə baş tutacaqsa, o zaman müsbət nəticə gözləmək olar. Əgər Rusiya prosesə müdaxilə edəcəksə, əmin olmalıyıq ki, proses uzun sürməyəcək, dayanacaq. Bu və ya digər şəkildə delimitasiya prosesinin başa çatması onun marağında deyil”.

Azərbaycan və Ermənistan arasında kommunikasiyaların açılmasına gəldikdə, politoloq İrəvanın buna hazır olduğunu deyib.

“Ermənistan və Azərbaycan xalqları açılacaq yollarda bir-biri ilə ünsiyyətə hazırdırmı” sualına Sukiasyan cavab verib ki, dövlətlər hazırdırsa, xalqlar da hazır olmalıdır.

Sukiasyan Azərbaycanla yanaşı, Türkiyə ilə də sərhədlərin açılmasının Ermənistanın xeyrinə olacağını qeyd edib:

“Ermənistanda Türkiyə əleyhinə şüarlar səsləndirənlər var, belə şüarlar reallığa uyğun gəlmir. Türkiyə ilə problem yaratmaq lazım deyil, ermənilər Türkiyədə dincəlirlər. İndi hər şey mümkündür. Münaqişəni transformasiya etmək lazım deyil. Gəlin münaqişədən yox, iqtisadi inkişafdan danışaq”.

Sukiasyan hesab edir ki, Ermənistan və Azərbaycan xalqları hələlik əlaqə qurmağa hazır olmasalar da, gec-tez barışıq əldə edilməlidir:

“Bəli, xalqlar arasında psixoloji uçurum var, amma bir misal çəkmək istəyirəm. Almaniya və SSRİ arasında münasibətlər İkinci Dünya Müharibəsi illərində gərginləşdi. Stalinin qərarı ilə sovet ordusu alman qadınlarını kütləvi şəkildə zorladı. İndi Almaniya ilə Rusiyanın münasibətləri var, ya yoxdur? Əgər indi vəziyyət dəyişibsə, bizim münasibətləri də normallaşdırmaq lazımdır, buna getməliyik, bu, normal prosesdir. Əgər münasibətləri normallaşdırmaq istəmiriksə, onda çıxış yolu müharibədir. Biz buna hazırıqmı?”.

# “Əfqandaxili barışıq” planı...

## “Taliban” mühacirləri geri qayıtmağa çağırır

*Nardar BAYRAMLI*

“Taliban” mühacirətdə olan Əfqanıstan siyasətçiləri və hərbçilərinin geri qayıtmaları üçün 15 maddədən ibarət qanun layihəsi hazırlayır. Əfqanıstanın Keçmiş Məmurları və Siyasətçiləri ilə bağlı Qayıdış və Əlaqələr Komissiyası əfqan siyasətçiləri və hərbçilərinin geri qayıtdıqları təqdirdə müvəqqəti yaşayış yerlərinin nəzərdən keçirilməsi və qanuni tələblərinin yerinə yetirilməsi ilə əlaqədar müddəaları özündə əks etdirən siyahısını açıqlayıb.

Xarici kütləvi informasiya vasitələri xəbər verir ki, siyahını “Taliban” sözçüsünün müavini İnamullah Samanqani komissiyanın rəhbəri Şahabuddin Delavara istinadən “Twitter”də paylaşıb və o, “Əfqandaxili barışıq” planının son doqquz ayda nəzərdən keçirildiyini bildirib. Layihənin 2-ci maddəsinə uyğun olaraq, Əfqanıstanı tərk etmiş şəxslər haqqında ətraflı məlumat tərtib ediləcək. 3 və 4-cü maddələrdə qeyd olunan Komissiya Katibliyi texniki aspektlərə, habelə geri qayıdanların mühafizəsinə və müvəqqəti yaşayış yerinin təmin edilməsinə cavabdehdir.

Belə olduğu halda, həmin mühacirlərin təhlükəsizliyi həqiqətən təmin olunacaqmı? Onlar “Taliban”a inana bilərlərmi? Məsələ ilə bağlı qəzetimizə açıqlama verən politoloq Ramiz Alıyev bildirib ki, sözügedən qanun layihəsində Əfqanıstana qayıtmaq istəyən insanların müəyyən edilməsinə və həvəsləndirilməsinə ciddi diqqət yetirilib. Qeyd olunur ki, əgər onlar geri qayıtsalar, komissiya onların əmlakını, həyatını və reputasiyasını qoruyacağına söz verib. Eyni zamanda, lazım gələrsə, geri qayıdanların təhlükəsizliyi üçün mühafizəçilərlə təmin etməyə hazır olduqları bildirilib. Geri qayıdanlar üçün çətinlik yaranarsa, “Taliban” cinayətkarlara qarşı şəriət qanunları çərçivəsində ciddi tədbir görəcək.

Politoloq xatırladıb ki, bir müddət öncə Türkiyənin paytaxtı Ankarada keçirilən görüşdə 40-a yaxın nüfuzlu siyasətçi və hərbçi “Taliban”a qarşı müharibəni qanuniləşdirib: “Milli Hərəkat Partiyasının lideri, general Əbdül Rəşid Dostumun evinə toplaşanlar bəyannamə qəbul edərək, “Taliban”la danışıqların nəticəsiz qalacağı təqdirdə müharibəyə və hərbi qarşıdurmaya keçəcəkləri barədə xəbərdarlıq edib. Yəqin ki, Əfqanıstanda hakimiyyəti ələ alan “Taliban” əlavə problemlər istəmir. Əgər öz hakimiyyətini qorumaq istəyirsə, müəyyən güzəştlərə getməlidir. Bütün məsələlər silah gücü ilə həll olunmur. Əgər “Taliban”ın siyasəti ölkə əhalisi tərəfindən qəbul edilməzsə, onda bir müddət sonra əhali kütləvi etirazlara qalxa bilər ki, bu da “Taliban” üçün yaxşı heç nə vəd etmir. O da məlumdur ki, “Taliban” öz hakimiyyətinin dünya birliyi tərəfindən tanınmasına çalışır. Artıq Rusiya belə bir addım atıb. Rəsmi Moskva “Taliban”la diplomatik münasibətlər qurub və Əfqanıstanın yeni hökumətinin diplomatları akkreditə olunub. Təbii ki, Rusiya üzləşdiyi sanksiyalarla əlaqədar Asiyada öz tərəfdaşlarını artırmağa çalışır. “Taliban” rejimi ilə diplomatik münasibətlərin qurulması da bu kontekstdə izah oluna bilər.

Bir müddət öncə Rusiyanın xarici işlər naziri Sergey Lavrov Pekində keçirilən konfransda Qərbi Talibana qarşı sərt mövqeyinə görə tənqid edib. Ümumilikdə isə, rəsmi Moskva ABŞ və Avropa ölkələrinin sanksiyalarından sığortalanmaq üçün dünyada öz tərəfdaşlarının sayını artırmağa istəyir. Asiya ölkələri də Rusiya üçün bu baxımdan yaxşı imkandır. Bu səbəbdən Rusiyanın müxtəlif manevrlər etməsi başadüşülləndir. Amma dünyanın aparıcı ölkələrinin, o cümlədən Qərbin anoloji addım atması hələ ki, sual altındadır. Belə bir şəraitdə “Taliban” rejimi beynəlxalq birlik tərəfindən legitim hakimiyyət kimi tanınması üçün radikal mövqeyini bir qədər yumşaltmalıdır. Bu mənada “Taliban” mühacirlərin qayıdışını təmin etmək üçün bütün vədləri yerinə yetirməlidir”.



# Oliqarxların ölüm müəmması

## Üç ayda səkkiz rusiyalı milyonerin meyiti tapılıb

*Nicat*

Son günlər xarici mətbuatda rusiyalı iri iş adamlarının - oliqarxların ölümü ilə bağlı məlumatlar geniş yayılmaqdadır. İşin maraqlı tərəfi həmin biznesmenlərin ailəlikcə ölmələridir (və ya öldürülmələri). Fərziyyələr çoxdur, lakin müəmmalı ölüm faktlarının heç biri haqqında dəqiq informasiyalara rast gəlinmir. Mütəxəssislərin gəldikləri yeganə fikir ölüm hadisələrinin Rusiya-Ukrayna müharibəsinin genişlənməsi, sanksiyaların sərtləşdirilməsidir. Diqqət yetirilməli olan digər əsas məqam isə dünyasını dəyişənlərin əksəriyyətinin Rusiyanın neft-qaz sektorunda yüksək vəzifəli şəxslər olmasıdır.

**Vladislav Avayev**

Aprelin 18-də "Qazprombank"ın keçmiş vitse-prezidenti Vladislav Avayevin, onun həyat yoldaşı və 13 yaşlı qızının meyitləri Moskvadakı mənzillərdən birində tapılıb. Məlumatlarda bildirilir ki, Avayevin əlində silah var idi və mənzil içəridən bağlı idi. Buna görə də istintaqın ilkin versiyası Avayevin özünün həyat yoldaşını və qızını vurması, sonra intihar etməsi və bunun səbəbini qısqanclıq adlandırması idi. İddiaya görə, qadın sürücüdən hamilə qalıb və Avayev qətli qısqanclıq zəminində törədib.

**Sergey Protosenya**

Ertəsi gün Rusiyanın "Novatek" şirkətinin keçmiş top meneceri Sergey Protosenya da həyat yoldaşı və qızı ilə birlikdə İspaniyanın Kataloniya əyalətində ölü tapılıb. Yenə də istintaq hesab edir ki, Protosenya əvvəlcə həyat yoldaşını və qızını balta ilə qətlə yetirib, sonra isə özünü asıb. Qeyd edək ki, "Novatek" hasilat həcminə görə Rusiyanın ikinci ən böyük təbii qaz şirkətidir. 2021-ci ildə Forbes-ə görə Rusiyanın ən böyük özəl şirkətlərinin reytinqində 8-ci yeri tutub.

**Leonid Şulman**

Bu ilin yanvarında, Rusiya Ukraynaya hücumlara başlamazdan əvvəl dünyaca məşhur "Qazprom"un aparıcı rəhbərləri sırasında olan 60 yaşlı Leonid Şulmanın da bir ay sonra müəmmalı şəkildə intihar etdiyi açıqlanıb. Kişinin meyiti öz evinin hamamında tapılıb. Duş kabinəsinin kənarında mərhumun ayağındakı dözülməz ağrıdan şikayət etdiyi barədə qeyd var idi. Ölümü zamanı Şulman "İlizarov aparatı" taxmışdı, çünki Yeni il tətilləri zamanı Leninskinin elit kəndində ayağını sındırmışdı.



**Tyulyakov**

Fevralın 25-də Leninqrad vilayətinin Leninski elit kəndinin Rubinovaya küçəsində 61 yaşlı kişi evinin əlavə qarajında ölü tapılıb. Tyulyakov "Qazprom"un (şirkətin xəzinəsi) Vahid Hesablaşma Mərkəzinin baş direktorunun korporativ təhlükəsizlik üzrə müavini vəzifəsində çalışıb. Kişini partnyoru tapıb. Araşdırmadan sonra bunun intihar olduğunu dedilər. Bu kəndin ərazisi Qazprom-un yüksək rəhbərliyinin mirası hesab olunur.

**Mixail Toltoşeya**

Onun ölümündən cəmi üç gün sonra neft və qaz maqnatı olan 66 yaşlı Mixail Uotford İngiltərənin Surrey şəhərindəki malikanəsində asılmış vəziyyətdə tapılıb. Oliqarxın əsl adı Mixail Toltoşeyadır. O, 1955-ci ildə Ukraynada anadan olub. Qərb mətbuatının yazdığına görə, sahibkar neft və qazla sərvət qazanıb. O, 2000-ci illərin əvvəllərində Britaniyaya köçəndə soyadını dəyişib. Orada Britaniya vətəndaşlığını alıb və daşınmaz əmlak biznesi ilə məşğul olub.

**Vasili Melnikov**

Martın 24-də tibbi ləvazimatlar istehsal edən nəhəng "Medstom" şirkətinin meneceri Vasili Melnikov həyat yoldaşı və uşaqları ilə birlikdə milyard dollarlıq evində ölü tapıldı və bu da intihar adlandırıldı.

**Andrey Krokovski**

Mayın 2-də Putinin qonaqlarını qəbul etdiyi Soçidəki xizək kurortunun direktoru Andrey Krokovskinin qayalıqdan yıxılaraq həlak olduğu bildirildi.

**Aleksandr Subbotin**

Ardınca başqa bir oliqarxın ölümü baş verib. Rusiyanın ikinci ən böyük neft istehsalçısı "Lukoyl"un keçmiş icraçı direktoru, 43 yaşlı milyarder Aleksandr Subbotin Rusiyanın Mıtişşi şəhərində bir şamanın evində ölü tapılıb. Bildirilib ki, Subbotin şamanın evinə "içkidən sonrakı narahatlığı müalicə etmək üçün tərkibində qurbağa zəhəri olan psixi stimullaşdırıcı" almaq məqsədilə gedib.

Amerikalı maliyyəçi və siyasi fəal Bill Brauder bu az qala mistik hadisə haqqında belə düşünür: "Əgər siz nə vaxtsa varlı bir rusiyalının şübhəli ölümü barədə eşitsəniz, ilk növbədə, ən pis versiyanı irəli sürməlisiniz."

Brauder, öz etirafına görə, son ölümlərlə bağlı heç bir konkret hal bilməsə də, onların "bu insanların əldə etdiyi pulların bir hissəsini istəyən, lakin onları paylaşmayan birinin" qurbanı ola biləcəyini istisna etmir.

# Paşinyan müxalifətin "Qarabağ yarası"na duz basır

## Danışıqlar Ermənistanı böhrandan xilas edə bilər, amma...

*Günel ABBAS*

**Mayın 22-də Brüsseldə keçirilən üçtərəfli görüş iki ölkə arasında davamlı sülhə imza atılmasına, danışıqların intensivləşməsinə, sərhədlərin delimitasiya və demarkasiyasına təkan verib. Ancaq görüşün baş tutması və nəticələri radikal müxalifətin revanşist çıxışlarını bir qədər də artırıb. Küçə aksiyaları davam edir və üçtərəfli görüş revanşist qüvvələri daha da aqressivləşdirib.**

Ermənistanda aksiyaların keçirilməsinə hələ aprelin 25-dən başlanılıb, mayın 2-dən etibarən isə proseslər bir az da gərginləşib. Belə ki, Ermənistanın baş naziri Nikol Paşinyanın xarici siyasətdə atdığı addımlardan "narahat olan" Ermənistan müxalifəti baş nazirin istefasını tələb edərək "vətəndaş itaətsizliyi" mitinqləri təşkil ediblər. Qeyd edək ki, bu tarixdən başlayaraq bir çox şəhərlərdə, xüsusən də paytaxt İrəvanda nümayişçilər mütəmadi şəkildə toplaşırlar. Onlar yolları bağlayır, parlament binasına piyada getməyə cəhd edirlər. Qrup halında küçələrə çıxan eləyhdarlar müxtəlif şüarlar səsləndirir, zibil qablarını yollara çəkirlər. Az qala bir çox küçə və prospektlərdəki yol blokadalarına polis müdaxilə edir. Müxalifət bloku isə günlərdir xalqı meydanlara, küçələrə, etirazlarını davam etdirməyə çağırır. Ermənistanın paytaxtı İrəvanda hökumətin istefasını tələb edən nümayişçilər bəzən gecələri şəhərin mərkəzində qurduqları çadır şəhərciyində keçirirlər. Müxtəlif vaxtlarda hökumət binası qarşısına toplaşırlar. Ötən gün isə "Müqavimət" hərəkatının üzvləri İrəvanda Ermənistan Xarici İşlər Nazirliyinin binasını mühasirəyə alıb. Səbəb kimi XİN-nin Ermənistan dövlətinin maraqlarına xidmət etmədiyini göstəriblər.



Müxalifət qrupunun liderləri Ermənistanın baş naziri Nikol Paşinyanı hakimiyyətdən uzaqlaşdırmaq istəyində bir olduqlarını bildirirlər. Etirazçıların əsas vəzifəsi Paşinyanın istefası və "Qarabağın qeyd-şərtsiz Azərbaycana təslim edilməsinin qarşısını almaq"dır. Proseslər baş verən ilk gündən müxalifət hakimiyyətin Qarabağı Azərbaycanın bir hissəsi kimi tanımaq planlarından xəbərdar olduğunu deyir. Paşinyanın öz çıxışlarında Azərbaycanla sülh sazişinin imzalanmasının ən qısa zamanda onların proqramında olduğunu deməsi və Brüssel görüşündə bu istiqamətdə addımların atılması müxalifətin onsuz da sızlamaqda olan "Qarabağ yarası"na duz basır.

**Ermənistan müxalifəti başa düşmür ki...**

Tərəflərin razılığı nəticəsində kommunikasiyaların açılması Ermənistanın hazırda içində olduğu dərin iqtisadi böhrandan çıxmasına da şərait yarada bilər. Ancaq bunu anlamamaqda israrlı olan müxalifət hakimiyyəti Azərbaycanla danışıqlara getməkdən çəkindirməkdə qətiyyətlidir.

Son məlumatlara əsasən Ermənistanın dövlət borcu 4 il ərzində 2,58 milyard ABŞ dolları və ya 37,6 % artıb. Ölkə hakimiyyəti antiböhran tədbirlərinin həyata keçirilməsi adı altında təkcə 2021-ci ildə dövlət borcunu 1,25 milyard dollar artırıb. Bu ilin ilk 4 ayında dövlət borcu 222 milyon dollar artıb. Bu pulun əhəmiyyətli hissəsi Mərkəzi Bank tərəfindən məzənnənin sabitləşdirilməsinə sərf edilib. Buna baxmayaraq hazırda adambaşına düşən milli borc təxminən 3 200 dollardır. Eyni zamanda, bu göstəricinin artması ÜDM-in ən azı proporsional artımına töhfə verməyib. Dörd il ərzində 2,45 milyard dollar borc xərclənib, lakin Ermənistanın nominal ÜDM-i təxminən 1,6 milyard dollar artıb və orta yoxsulluq səviyyəsi aşağı düşmək əvəzinə 27%-ə yüksəlib. Borc nəinki ölkənin sosial-iqtisadi problemlərini həll etmir, hətta onları daha da dərinləşdirir.

**Təxribatlar digər dövlətlərlə münasibətləri zədələyir...**

Hakimiyyətin sülh danışıqları ilə bağlı atdığı hər addıma radikal mövqe nümayiş etdirən müxalifət bu davranışı ilə Ermənistanın qonşularla olan münasibətini də zədələyir. Onlar Ermənistanın öz qonşuları ilə münasibət yaratmasını ya istəmirlər, ya da bunu gözardı edirlər. Müxalifətin bu cür çıxışları ümumilikdə dövlətin mənafeyinə ziyan vurur. Revanşist qüvvələrin Ermənistanda baş tutan müxtəlif beynəlxalq tədbirlər zamanı təxribatlara cəhd etdiyinin dəfələrlə şahidi olmuşuq. Elə mayın 22-də İrəvandakı Avropa çempionatında da Olimpiya Xartiyasına zidd olaraq idmanın ruhuna və missiyasına uyğun olmayan hallar müşahidə olunub. Açılış mərasimində ev sahibi olan ölkə Ermənistan tərəfindən təxribatçı hərəkətlərə yol verilib, Ermənistanın Azərbaycana qarşı ərazi iddialarının "simvolu" kimi qeyri-qanuni formada qondarma "bayrağı" nümayiş etdirilib. Əslində, insanları və ölkələri bir araya gətirmək, idman vasitəsilə dostluq formalaşdırmağa xidmət edən tədbirin "Ermənistan nümunəsi" hamıya məlumdur. Bununla yanaşı Avropa Boks Federasiyası bayrağı altında keçirilən tədbirdə təxribat məqsədilə nümayiş etdirilən "simvol" əslində Ermənistanın işğalçılıq siyasətini göstərir və bu addım qəti şəkildə cəzalandırılmalıdır.




# Şamaxı şəhəri "Türk Dünyasının Turizm Paytaxtı" seçilib

*MİKAYIL*

**Şamaxı şəhəri 2023-cü il üçün "Türk Dünyasının Turizm Paytaxtı" seçilib. Bu barədə qərar Türk Dövlətləri Təşkilatının turizm nazirlərinin 7-ci iclası və turizm üzrə işçi qrupunun 17-ci iclasında qəbul edilib.**

Şamaxı şəhərinin "Türk Dünyasının Turizm Paytaxtı" seçilməsi heç də təsadüfi deyil. Türk dünyasını birləşdirən əsas şəbəkələrdən biri tarixi İpək Yoludur. Şamaxı da İpək Yolu üzərində yerləşən tarixən mövcud olan Şirvanşahların paytaxtı olub. Şamaxı Azərbaycanın ən qədim şəhərlərindən biridir, Bakıdan 122 kilometr məsafədə, Böyük Qafqaz silsiləsinin ətəklərində yerləşir. Şirvanın baş şəhəri zəngin tarixi keçmişi sayəsində bu gün də diqqətəlayiq yerlərinin çoxluğu ilə seçilir.

Şamaxının tarixi zəngindir. Bəzi məlumatlara görə, "Şamaxı" toponimi "şah" və "mah" sözlərinin birləşməsindən əmələ gəlib. Şəhərin şimal-qərb hissəsində aparılan arxeoloji qazıntılar zamanı e.ə. V-IV əsrlərə aid yaşayış məskəni aşkar edilib. Qafqaz Albaniyasının şəhəri kimi Şamaxı yunan alimi Klavdiy Ptolomeyin (II əsr) "Coğrafiya" əsərində xatırlanır. X əsrin əvvəlində şəhər Şirvan dövlətinin paytaxtı olub. XVI əsrə qədər Şamaxı-Bakı-Dərbənd regionunun müxtəlif vilayətləri Şirvan dövlətinin sərhədləri daxilində idi. Bu dövlətin ərazisində 360 qala vardı.

Karvan yollarının kəsişməsində yerləşən Şamaxı Yaxın Şərqin ən iri ticarət-sənətkarlıq mərkəzlərindən biri olub. Şəhər ipək ticarətində mühüm yer tutub. XVI əsrin mənbələrində Şamaxı və Venesiya tacirlərinin əlaqələrindən söz açılır.

Zəngin torpaqlara sahib olmaq istəyən yağıların niyyətləri bəzən qısa müddətə baş tutub. XII əsrin əvvəlində, monqollar Azərbaycana yürüş etdiklərində olduğu kimi. Böyük Pyotrun vaxtında isə ruslar bu şəhəri ələ keçirərək onu yağmalayıb və xaraba qoyublar. Düşmən basqınlarından başqa, Şamaxı dəfələrlə (1607, 1667, 1859 və 1902-ci illər) dağıdıcı zəlzələlərdən əzab çəkib. 1667-ci ildə Şamaxı əhalisinin 80 min nəfəri həlak olub. 1902-ci ilin zəlzələsi də şamaxılılara rəhm etməyib. Şəhərin böyük hissəsi bir andaca xarabazara çevrilib. XIX əsrin ortalarında Azərbaycana səyahət edən məşhur fransız yazıçısı Aleksandr Düma kədərlə qeyd edirdi: "Şamaxı heç vaxt deyə bilməyəcək ki, sabah mövcud olacaq, ya olmayacaq"

Bütün dərd-bəlalara baxmayaraq, hər bir zəlzələdən və düşmən basqınından sonra şamaxılılar şəhəri yenidən inşa ediblər. Bu gün Şamaxı müasir, səliqə-sahmanlı, Azərbaycanın gözəl memarlıq abidələrinin qorunub saxlanıldığı ən iri şəhərlərindən biridir.

O artıq 2023-cü il üçün "Türk Dünyasının Turizm Paytaxtı"dır. Onun əfsanəvi Gülüstan qalası, "Yeddi günbəz", Şamaxı Cümə məscidi və b. tarixi abidələri var. 3000 il yaşı olan bu qədim diyar yenidən dirçələrək Azərbaycanın mədəniyyət tarixinə öz adını yazmağı bacarıb.

Dahilər Vətəni də deyilən Şamaxı Əfzələddin Xaqani, İmadəddin Nəsimi, Seyid Əzim Şirvani, Mirzə Ələkbər Sabir kimi böyük söz ustadları yetişdirib.

Şamaxının müasir atributuna çevrilən Nəsirəddin Tusi adına Astrofizika Rəsədxanasını da xüsusi vurğulamaq lazımdır. Rəsədxana Prezident İlham Əliyevin iştirakı ilə yenidənqurmadan sonra açılıb. Burada yenilənmiş teleskoplar, ərazidə yaradılan yüksək şərait nümayiş etdirilir.

Bir sözlə, tarixlə müasirliyin vəhdətini özündə yaşadan qədim Şamaxı bu gün yenilənir və daha da gözəlləşir.

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir





# Adrenalin almaq istəyirsiniz?

## Ekstrim sevənlər üçün: məkanlar və qiymətlər

*MÜŞFİQƏ*

Azərbaycanda turizm mövsümü başlayır. Artıq may ayının ortalarından etibarən səfalı yerləri, mədəni-tarixi bölgələri olan respublikamıza axışıb gələn əcnəbi turistlərin sayındakı artım turizm mövsümünün yaxşı başladığını, qarşıdakı dövrdə bizi çox işlərin gözlədiyini göstərir. Azərbaycana müxtəlif ölkələrdən insanlar qrup halında təbiətə haykinq, trekkinq və digər səyahət turları təşkil edirlər. Adətən gəzintilər 4 gecə 5 gün çəkir. İki gün Bakıda gəzir, iki gün də İsmayıllı, Qəbələ, Şəki, Astara və digər bölgələrdə trekkinq edilir. Bəzən dağ otellərində, bəzən isə çadır kampı qurub orda qalırlar. Turistlər Azərbaycanın yüksək dağlarına çıxır, göllərini, çaylarını, yaylalarını gəzirlər.

**Suda aktiv turizm**

Ölkəmizdə yerli sakinlər və turistlərin məşğul ola biləcəyi bir neçə ekstremal idman növü var.

Azərbaycanda iyunda başlayan və sentyabrın sonunadək davam edən çimərlik mövsümündə dəniz istirahətinin bütün növlərindən zövq almaq üçün əlverişli imkan mövcuddur. Dayvinq, raftinq, kaytserfinq, deltaplanerizm, skuter sürmək və digər aktiv su istirahəti növləri ölkəmizdə geniş yayılıb.



Yaxınlaşan qızmar yay günlərinin dadını çıxarmaq üçün ən yaxşı variant vindsörfinqdir. Küləyin az qala ilboyu hakim olduğu doğma Bakıda bu idman növü üçün əlverişli şərait var. Bütün su idman növləri kimi vindsörfinqdə də idmançı özünü suyun və küləyin "ixtiyarına" verir. Üzərinə yelkən quraşdırılmış xüsusi sörfinq lövhəsi ilə idmançı dənizdə küləyin vasitəsilə hərəkət edir. Əsas şərt tarazlığı qoruyub saxlamaqdır.

16 yaşdan yuxarı, çəkisi 90 kiloqramadək və normal fiziki gücü olan hər bir kəs özünü bu idman növündə sınaya bilər. Vindsörfinq üzrə məşğələlərə qatılmaq istəyənlər Şıxov çimərliyində "Ramada" və "Mambo Beach" məkanlarına üz tutmalıdırlar. 2 saatlıq təlimdən sonra dəniz və siz baş-başa qala bilərsiniz. Qiymət bir nəfər üçün 60 manatdır. Bu qiymətə hotel xidmətlərindən faydalanmaq da daxildir (hovuz, çimərlik, geyinmə-soyunma otağı, duş, dəsmal).

Aktiv istirahətin ən əyləncəli növlərindən biri olan dayvinq zəngin flora və faunaya malik Xəzər dənizinin dibinə dalma zamanı xüsusilə maraqlı olur. İlk dalma zamanı turistlərə təlimatçının rəhbərliyi ilə tanışlıq xarakterli ekskursiya təklif olunur. Uzunmüddətli və ciddi dalmalar üçün təcrübə və təlimin olması lazımdır. Ətraflı məlumat üçün "FAIREX" assosiasiyasına, "Delfin", "Gilavar" klublarına müraciət edə bilərsiniz.

Su İdmanı Sarayında da iyundan oktyabr ayınadək dənizdə sualtı gəzinti təşkil edilir. Qiymət şəkil və video ilə birgə 60 manatdır. Yaya qədər isə dərslər Su İdmanı Sarayında 6 metrlik hovuzda keçirilir. Qiymət 100 manatdır. 5 günlük kurs (3 gün nəzəriyyə, 2 gün təcrübə) keçənlərə beynəlxalq sertifikat verilir. Onlara yayda dənizdə 2 sualtı gəzinti pulsuz təşkil edilir. Kurs müddətində lazım olan bütün avadanlıq, çəkiliş daxil qiymət 600 manatdır.

Bundan başqa, su motosikleti (hidrosikl) və kaytserfinq yay mövsümündə dənizdə ən geniş yayılmış əyləncə vasitələrindəndir. Yayda Abşeronun və Nabranın bir çox çimərliklərində hidrosikl kirayələmək olar. Kaytserfinq həvəskarları isə Xəzərin Xızı rayonu Şuraabad qəsəbəsi sahilindəki "Blue Planet" çimərliyində özlərini sınaya bilərlər. Burada kaytserfinq məktəbi və kaytmağaza da fəaliyyət göstərir.

**Səmada aktiv istirahət**

Son samanlar paraşütlə tullanma Azərbaycanda getdikcə populyarlaşır. FAIREX çərçivəsində fəaliyyət göstərən bir neçə ixtisaslaşmış klub ("Gilavar", "RockStone", "Ekoturist") paraşütlə tullanma eyforiyasını yaşamaq istəyənlərə kömək edir. Əsl adrenalin hissini yaşamaq istəyənlər üçün yamac paraşütü ilə uçuş seçimi mövcuddur. Bu idman növü ilə bağlı "AirGame Paraglading"də təlimlər keçirilir. Belə ki, bir aylıq təlimin qiyməti qrup halında 500 manat, fərdi isə 1 000 manatdır. Ödənişi nəğd şəklində və yaxud kreditlə ödəmək də mümkündür. Uçuş təlimi Pirəkəşkül, Qobustanda keçirilir. Heç bir təcrübəsi olmayan həvəskarlar isə Tandem üsulunu seçə bilərlər. Burada təcrübəli pilotla birlikdə eyni paraşütdə uça bilərsiniz. Qiyməti isə müqayisədə daha ucuzdur. Belə ki, Qırızdəhnədə (Quba) uçuş üçün 150, Beşbarmaqda (Siyəzən) isə 100 manat ödəmək lazımdır. Uçuş anı isə GoPro kamerası ilə yaddaşa köçürülür.

Hazırda Azərbaycanda ən çox turist qəbul edən rayonlardan biri Qəbələdir. Son illər ərzində turizmin sürətlə inkişaf etdiyi Qəbələdə turistlər üçün bir çox şərait yaradılıb. Qəbələnin havası və təbiət mənzərəsi buranı uçuşlar üçün əlverişli məkana çevirir. Bu məqsədlə də, əyləncə və ekstrim növü olan paraplan uçuşları təşkil olunur. Uçuşlar Tufandağdan hər gün saat 10:00-dan başlayaraq həyata keçirilir. Həm yerli, həm də xarici turistlərin maraq göstərdiyi uçuşun müddəti 10-15 dəqiqədir. Gün ərzində hava şəraitindən asılı olaraq 5-6 uçuş həyata keçirilir. Qiymətlərə gəldikdə, bir nəfər üçün uçuşun qiyməti 200 manatdır. Qiymətə kanat yolu və videoçəkiliş də daxildir.




Ətrafı quş baxışı ilə seyr etmək istəyənlərin seçimi isə paraplan və deltaplandır. "Gilavar", "RockStone", "Climb Club", Qusardakı "Şahdağ" Turizm Mərkəzində də təlimatçı ilə birlikdə paraplanla uçuşlar edilir. Peşəkar təlimatçı tərəfindən idarə olunan bu idman növləri 20-30 dəqiqə uçduqdan sonra təyin olunmuş nöqtədə rahat eniş həyata keçirir.

**Zirvədəki həyəcan**

Hündürlükləri, zirvələri fəth etməyi sevənlər üçün dağ zirvələrinə (Kəpəz, Qızılqaya, Bazardüzü) aparan şirkətlər var. Birgünlük dağ yürüşləri 30-70 manat arası dəyişir. Qiymət məsafənin şəhərdən uzaqlığına və yemək verilib, verilməməsinə görə dəyişir. Yürüş zamanı dağ kəndlərindəki sakinlərlə ünsiyyət qurulur, kənd evlərində nahar və şam da edirlər. Kafe və restoranlara gedilməmə səbəbi isə həm turistlərin kənd həyatı ilə tanış olması, həm də kənd sakinlərinə dəstək olmaqdır.

Apardığımız sorğulara görə, zirvə yürüşlərində ən yaxşı firma "Azerbaijan Mountain Guide"dır. Yürüşlər 2-3 gün çəkir. Bu firma lazım olan bütün geyim və əşya ilə turisti təmin edir. Qiymət isə məsafə və dağda qalınacaq gün, eləcə də iştirakçı sayına görə 100-250 manat arası dəyişir.

Ölkədə bir çox yürüş marşrutları var. Bunlardan ən ekstrimi Şahdağ Milli Parkıdır. Milli Parkda turistlər üçün hərəkət marşrutları və kamp sahələri var.

Hikinq idman növü üzrə turistlərin ən çox üz tutduğu yer İsmayıllı rayonudur. Qaranohur gölünə hər həftəsonu 100-dən çox turist gedir. Gölə ən yaxın kənddən 3 saatlıq piyada yol var. Buna baxmayaraq, yüzlərlə adam gölü görməyə gəlir. Demək olar ki, hər gecə göldə 3-5 fərqli qrup çadırları qurub gecələyir.





## Astanov Xəyal kikboksinq üzrə Azərbaycan çempionu olub

Sərhədçi İdman Olimpiya Mərkəzində keçirilən yarışda kişilər və qadınlar arasında kikboksinqin "Low Kick" və "Full Contact" versiyaları üzrə 29 final baş tutub.

XXVI Azərbaycan çempionatında ilk dəfə kikboksinqin "Full Contact" növü üzrə mübarizə aparılıb. Buna səbəb avqustda Türkiyənin Konya şəhərində keçiriləcək V İslam Həmrəylik Oyunlarına bu növ üzrə yarışın salınmasıdır.

Beləliklə, XXVI Azərbaycan çempionatı "Full Contact" növü üzrə II yerin qalibi DİN İdman Cəmiyyətinin yetirməsi, baş məşqçi Hikmət Hacıyevin tələbəsi Astanov Xəyal olub. Qeyd edək ki, Astanov Xəyal həm də Prezident kubokunun qalibidir. Bundan başqa o, WAKOAvropa III-sü , WIZART II-sidir.

Ümumilikdə, səkkiz qızıl medal qazanan DİN İdman Cəmiyyəti komanda hesabında birinci yeri tutduğu üçün komandanın baş məşqçisi Hikmət Hacıyevə kubok təqdim olunub.

## Gövhər Beydullayeva şahmat üzrə ölkə çempionu olub

Şahmat üzrə qadınlar arasında Azərbaycan çempionatına yekun vurulub. Federasiyanın Mətbuat xidmətindən verilən məlumata görə, yarışın lideri Gövhər Beydullayeva hesabat turunda Xəyalə Abdullanı məğlub etməklə 5 xal toplayıb və karyerasında ilk dəfə Azərbaycan çempionu adını qazanıb.

Turnirin sürpriz iştirakçısı Ləman Hacıyeva bu dəfə ağ fiqurlarla Türkan Məmmədyarovanı üstələyib. Nəticədə, Hacıyeva 4,5 xalla ilk dəfə ölkə çempionatında gümüş medala sahib çıxıb.

Ülviyyə Fətəliyeva qara fiqurlarla Xanım Balacayevanı məğlub edib yekun sıralamada 4 xalla 3-cü pilləni tutub.

Son turda Ayan Allahverdiyevanı üstələyən ötən ilin çempionu Gülnar Məmmədova isə bu dəfə 4-cü yerlə kifayətlənib.

Qeyd edək ki, dairəvi sistem üzrə yeddi turdan ibarət çempionatın mükafat fondu 11 400 manat təşkil edib. Qalib 4 000 manat pul mükafatı əldə edib.





## 2 boksçumuz beynəlxalq turnirin finalına yüksəlib

Azərbaycanın 4 yeniyetmə boksçusu Özbəkistanın Fərqanə şəhərində İsrailjon Rüstəmovun xatirəsinə həsr olunan beynəlxalq turnirdə yarımfinal görüşünə çıxıb.

Federasiyadan verilən məlumata görə, 50 kq-da Tağı Nəsibov özbəkistanlı Şahboz Erqaşevlə üz-üzə gəlib. Rəqibini məğlub edən idmançı finala yüksəlib.

Onun uğurunu 54 kq-da Məhəmmədəli Aşurəliyev təkrarlayıb. Özbəkistan təmsilçisi Murodulla Sunatullayevdən güclü olan milli üzvü qızıl medal uğrunda döyüşə vəsiqə qazanıb.

Yığmanın digər boksçuları - 57 kq-da yarışan Məhəmmədəli Qasımzadə və 66 kq çəki dərəcəsindəki Ziya Həsənov isə yarımfinalda məğlub olaraq bürünc medalla kifayətləniblər.

*MURAD*

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4810**
**Sifariş: 1468**
"Kapital Bank"ın Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Mübariz Abdullayev